www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 mart 2015-ci il Çərşənbə № 60 (6088) Qiymətı 40 qəpik

**Xəbər**

## Şəkidə 76 yaşlı kişi həyat yoldaşını baltaladı

yazısı səh.14-də

**Gündəm**

### Qarsda türk tarixinin ən böyük layihəsinin təməli qoyuldu



TANAP-ın Türkiyə ərazisindən keçən hissəsinin tikintisinə başlanıldı; İlham Əliyev iki ölkəni istəməyənqüvvələrə mesaj göndərdi; Ərdoğan "Azərbaycan-Türkiyə" şeirini dedi

yazısı səh.9-da

*Novella Cəfəroğlu:*

### "Bizə deyilib ki, əfv olacaq"

yazısı səh.4-də

### Vicdan məhbusunun işində adı keçən cazmen danışdı

yazısı səh.5-də

### Vergilər və qiymət artımı şadlıq evlərini də "vurdu"

yazısı səh.13-də

### İntiqam Əliyev məhkəməsində sərt danışdı

yazısı səh.3-də

### AXCP Müsavatla "köhnə söhbəti" təzələdi

yazısı səh.6-da

### 2 ton 790 kiloqramlıq heroin işində hökm oxundu

yazısı səh.14-də

### Deputatla Şəmkirin icra başçısının qovğası qızışdı

yazısı səh.12-də

### İcra hakimiyyətlərinə məcburi ting əkdirirlər...

yazısı səh.15-də

### Ermənıyə Moskvada verilən sürücülük vəsiqəsində doğum yeri "Dağlıq Qarabağ" göstərilib

yazısı səh.11-də

### Keçmiş siyasi məhbuslar iş axtarır...

yazısı səh.6-da

### Novruz süfrəsi 200 manata başa gəlir...

yazısı səh.14-də

## Bakıda gənc qadını gecəyarı küçədə sürüdülər

# REKTORUN QIZININ DÖYÜLMƏSİ BARƏDƏ SENSASİON İDDİALAR

Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının övladı ilə bağlı baş verənlər ölkə gündəminə bomba kimi düşdü; Ülkər İsayeva sevgilisi tərəfindən niyə sərt formada cəzalandırılmasını niyə gizlədib?; prokurorluq protest versə də, məhkəmə Zaur və Elin qardaşlarını ikinci dəfə də həbs edə bilmədi, amma...

yazısı səh.5-də




# ABŞ kəşfiyyatından Bakı və digər paytaxtlara çevriliş xəbərdarlığı

Amerika məxfi servis analitikləri hesab edir ki, Rusiya Krımda uğurla sınaqdan çıxardığı "məxməri işğal" ssenarisinin oxşar variantını "sözə baxmayan" digər həmsərhəd ölkələrə də tətbiq edə bilər; əsas hədəf GUAM ölkələridir

yazısı səh.8-də



Elman Rüstəmov

### Baş bankir parlamentdə manatla bağlı pessimist danışdı

yazısı səh.4-də



Mübariz Qarayev

### MTN "Ləzgi" məscidinin imamını həbs edib

yazısı səh.12-də



### Rəsul Quliyev Milli Şuranın aksiyasını ələ saldı

yazısı səh.10-da

# 18 mart 2015

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015



## Prezident bp şirkətinin baş icraçı direktoru ilə görüşüb

**İham Əliyev Qarsda bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. APA-nın məlumatına görə, görüşdə Azərbaycanla bp arasında uğurlu əməkdaşlıqdan və "Şahdəniz" qaz yatağının işlənməsi üzrə səmərəli birgə fəaliyyətdən məmnunluq ifadə edilib.**

Ötən il sentyabrın 20-də Bakıda "Cənub" qaz dəhlizinin, eləcə də Qarsda TANAP layihəsinin təməlinin qoyulmasının önəmi vurğulanıb, "Cənub" qaz dəhlizi layihəsi üzrə işlərin uğurla davam etməsinin əhəmiyyəti qeyd olunub. "Cənub" qaz dəhlizi layihəsinin bir hissəsi kimi TANAP-ın önəmi, bu layihələrdə bütün işlərin plan üzrə həyata keçirildiyi bildirilib.

Söhbət zamanı 2018-ci ildə "Şahdəniz-2" layihəsindən Türkiyəyə 6 milyard kubmetr əlavə qazın verilməsinin əhəmiyyəti qeyd edilib. TAP layihəsi üzrə də işlərin uğurla davam etdiyi vurğulanıb, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu yüksək qiymətləndirilib.

Görüşdə bp-nin TANAP layihəsinin səhmdarlarından biri olmasından məmnunluq ifadə olunub, digər layihələr üzrə də işlərin uğurla davam etdirildiyi bildirilib. Söhbət zamanı Azərbaycanla bp arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.







## Daşkəsəndə Novruz şənliyi keçirilib

### İcra başçısı Əhəd Abıyev bayram törənində çıxış edib, hərbi hissədə əsgərlərə baş çəkib və boks rinqinə çıxıb

**Martın 17-də Daşkəsən şəhərinin mərkəzində, Heydər Əliyev abidəsinin qarşısındakı meydanda Novruz bayramı münasibətilə Daşkəsən Rayon İcra Hakimiyyətinin və YAP Daşkəsən rayon təşkilatının birgə təşkil etdiyi ümumrayon şənliyi keçirilib. Daşkəsən RİH-dən musavat.com-a daxil olan məlumatda bildirilir ki, başçı Əhəd Abıyev ümumrayon şənliyində daşkəsənliləri Novruz bayramı münasibətilə təbrik edib. İcra başçısı Novruz bayramının tarixindən danışıb.**

Rayon mərkəzində bayram şənliyi başa çatdıqdan sonra Daşkəsən RİH-in kollektivi və rayon ictimaiyyətinin nümayəndələri rayonun cəbhə xəttində yerləşən "N" saylı hərbi hissəyə əsgərlərlə görüşə gediblər. Daşkəsənin icra başçısı cənab Əhəd Abıyev və Respublika Hərbi Prokurorluğunun məsul vəzifəli işçisi polkovnik Mahir Əhmədov bayram hədiyyələrini - 10 ədəd xarici qızıl saat, 7 ədəd müasir tipli televizor, 5 ədəd elektrik generatoru, 300 ədəd bayram xonçası olan Novruz sovqatını əsgərlərə və zabitlərə təqdim ediblər.

Sonra Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev əsgərlər və zabitlər qarşısında çıxış edib.

# AFFA "Hafka"nın borcunu ödədi



**Artıq bir neçə aydır ki, maaşlarını almayan "Bakı" klubunun futbolçuları bu gün bir aylıq əmək haqqlarını alıblar. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, AFFA-nın baş katibi Elxan Məmmədov "Qarabağ"la oyundan öncə oyunçulara verdiyi sözə gec də olsa, əməl edib. "Zolaqlılar" sabah Topaz Premyer Liqasının 26-cı turunda "Simurq"la üz-üzə gələcəklər. Bu gün "Bakı"nın bazasına yığışan oyunçular pulların almayacaqları halda məşqlərə qatılmayacaqlarını və sabahkı matçda meydana çıxmayacaqlarını bildiriblər. Nəticədə AFFA onlara maaşlarını ödəmək məcburiyyətində qalıb.**



## Poroşenko Ali Radaya təkliflər göndərdi

**Ukrayna prezidenti Petro Poroşenko Ali Radaya Donbasın ayrı-ayrı rayonlarında xüsusi özünüidarə haqqında təkliflərini göndərib.**

"Qafqazinfo"nun musavat.com-a istinadən verdiyi xəbərə görə, prezident bildirib ki, Donetsk və Luqansk vilayətlərinin ayrı-ayrı rayonlarında özünüidarənin xüsusiyyətləri barədə qanun bu ərazilərdə Ukraynanın suverenliyini bərpa edəcək. "Bu da bizim sülh prosesində güddüyümüz əsas hədəfdir" - deyib Ukrayna lideri.

Öz növbəsində parlamentin spikeri Aleksandr Qroysman qeyd edib ki, xüsusi qayda yalnız yerli idarə orqanlarına demokratik seçkilərdən sonra həyata keçiriləcək.

Ali Rada qanun layihəsinə martın 17-də baxacaq.

## Bakıda sürücü yol polislərini bıçaqla hədələdi

**Bakıda yol polislərinin üstünə bıçaq çıxaran şəxs saxlanılıb. "Report"un məlumatına görə, hadisə Azadlıq prospektinin M.Ə.Rəsulzadə qəsəbəsindən keçən hissəsində qeydə alınıb.**

Belə ki, "Nissan" markalı avtomobillə hərəkət edən sürücü yol polisləri ilə mübahisə edib və onlara bıçaqla hədə-qorxu gələrək hadisə yerindən qaçmaq istəyib. Sürücünü təqib edən yol polisləri onu Binəqədi rayonu ərazisində - Əhməd Rəcəbli küçəsində saxlamağa nail olublar.

Saxlanılan zaman avtomobildən sürücünün polislərə hədə-qorxu gələn zaman istifadə etdiyi bıçaq da aşkarlanıb. Bundan sonra sürücü şəxsiyyətinin dəqiqləşdirilməsi üçün Binəqədi Rayon Polis İdarəsinə aparılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

## Təcili yardımdan bayram xəbərdarlığı

**"Novruz bayramı ilə bağlı Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yadım Stansiyası gücləndirilmiş iş rejimində çalışacaq".**

Bunu lent.az-a açıqlamasında stansiyanın operativ işlər üzrə şöbəsinin böyük həkimi Zemfira Vahidova bildirib.

Onun sözlərinə görə, gücləndirilmiş iş rejimi martın 20-dən 24-dək (ayın 24-ü də daxil olmaqla) davam edəcək: "Həmin günlərdə xəstəxana və poliklinikalar işləmədiyi üçün bütün müraciətlər təcili yardıma ünvanlanacaq".

Z. Vahidova vətəndaşlara qidalanma fikir verməyi, qidalanmaya düzgün əməl etməyi məsləhət görüb: "Xüsusən də valideynlər diqqətli olmalıdırlar. Bayram günlərində xroniki qastritlə bağlı müraciətlər artır. Belə günlərdə ən çox müraciət də məhz bu xəstəliklərlə bağlı olur".

## Sabiq hakimə hökm oxunması bayramdan sonraya qaldı

**Bu gün Gəncə Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham olunan sabiq hakim Həsən Əliyev, Elman Məmmədov və Taleh Süleymanovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, bu günə təyin olunmuş məhkəmə prosesi martın 29-na kimi təxirə salınıb.**

Qeyd edək ki, dövlət ittihamçısı Anar Mirikişiyev sabiq hakim Həsən Əliyevə 10, Elman Məmmədovla Taleh Süleymanovun hər birinə isə 9 il iş istəyib. Bu gün onlara hökm oxunması nəzərdə tutulurdu, amma proses bayramdan sonraya saxlanıb.

Xatırladaq ki, 2007-2014-cü illərdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim işləyən Həsən Əliyevin səlahiyyətlərinə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə ötən ilin fevral ayında xitam verilib.

Təxminən 5 ay sonra isə uzun illər prokurorluq və məhkəmə orqanlarında çalışan H.Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) və 312.2-ci (rüşvət vermə) maddələri ilə ittiham irəli sürülüb və barəsində başqa yerə getməmək haqqında iltizam-qətimkan tədbiri seçilib.

Buna səbəb Ramazan Səlimov adlı şəxsin iddiası olub. R.Səlimov iddia edib ki, sabiq hakim ondan vəzifəyə düzəltmək vədi ilə 600 min manat pul alaraq qaytarmayıb.

## Deputatlar Nemtsova görə ayağa durmayıblar

**Rusiyanın Dövlət Duması müxalifət lideri və keçmiş deputat Boris Nemtsovun xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi təklifini rədd edib. Təklifi verən deputat Dmitri Qudkov buna görə iclas zalını tərk edib.**

Dumanın spikeri Sergey Narışkin bununla bağlı səsvermə keçirilməsindən imtina edib və bildirib ki, Duma artıq Nemtsovun yaxınlarına başsağlığı verib.

Qatı millətçi Vladimir Jirinovski isə bildirib ki, deputatlar Duma şurasının qərarı və ya milli matəm günü ilə bağlı ayağa dura bilərlər.

Prezident Vladimir Putinin sərt tənqidçilərindən olan Boris Nemtsov fevralın 27-də Moskvanın mərkəzində qətlə yetirilib.

Bu qətldə şübhəli bilinən 5 nəfər saxlanıb (AzadlıqRadiosu).

## Bakının mərkəzində xarici şirkətin britaniyalı işçisinə hücum...

**Bakıda xarici şirkətin əməkdaşını binanın blokunda şil-küt ediblər. Milli.az-ın məlumatına görə, İçərişəhər ərazisində yerləşən TTE Petrofac şirkətində təlimçi işləyən Böyük Britaniya vətəndaşı, 47 yaşlı Qrubbon Layle cinayətkarların hücumuna məruz qalıb.**

O, Üzeyir Hacıbəyov küçəsində yaşadığı mənzilinə getmək istəyərkən blokda iki naməlum şəxs ona hücum edib. Onu bədəninə, sifətinə zərbələr vurmaqla yerə yıxıblar, sonra isə cibindən 225 manat, 300 dollar, 100 funt-sterlinq olan pul kisəsini götürərək qaçıblar. Q.Layle martın 16-da başına gələnlərlə bağlı polisə şikayət edib.

Səbayel Rayon Polis İdarəsindən sayta verilən məlumata görə, əcnəbi şirkət əməkdaşının döyülməsi ilə bağlı Cinayət Məcəlləsinin 180-cı (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## DİN "Sovetski" də kütləvi dava xəbərini təkzib edib

**Daxili İşlər Nazirliyi (DİN) Bakının "Sovetski" adlanan ərazisində kütləvi dava baş verməsi barədə yayılan xəbərlərə münasibət bildirib.**

Bununla bağlı APA-nın sorğusunu cavablandıran DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov qeyd edib ki, yayılan məlumatlar həqiqəti əks etdirmir və uydurmadır: "Birmənalı olaraq bildirirəm ki, sözügedən xəbər uydurma və şayiə əsasında hazırlanmış dezinformasiyadan başqa bir şey deyil. Bu gün ölkəmizdə narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə elə təşkil olunub ki, narkotiki satmağa cəhd edən də, onu alan da vaxtında müəyyən edilərək yaxalanırlar. O ki qaldı guya soyuq silahlarla, küt alətlərlə silahlanmış 50 nəfərin 12 maşında uzaq yol qət edərək davaya gəlmələrinə, bu da nağıldı. Ölkəmizdə kriminogen duruma tam və fasiləsiz olaraq nəzarət edildiyindən bilirəm ki, belə bir fakt nə Bakıda, nə də digər şəhər və rayonlarımızda olmayıb".

Qeyd edək ki, ötən gün bəzi xəbər saytlarında "Sovetski"də kütləvi dava baş verməsi və nəticədə xeyli sayda insanın yaralanması barədə məlumatlar yayılıb. Naməlum mənbələrə istinadən verilən bu informasiyada iddia olunurdu ki, 12 maşında Yevlaxdan Bakıya gələn 50 nəfərin iştirakı ilə Yasamalda kütləvi dava olub. Davaya səbəb kimi isə narkotik alverində yaranan mübahisə göstərilib.

## Türkiyə Rusiyanın qaz təklifini rədd etdi

**Türkiyənin BOTAŞ şirkəti "Qazprom"la bu ölkəyə tədarük edilən Rusiya qazının qiymətinə 10,25 faiz həcmində endirim edilməsi ilə bağlı sazişi imzalamaqdan imtina edib.**

Bu barədə "Trend" "Aktif-medya" qəzetinə istinadən məlumat verir.

Sazişi imzalamaqdan imtina endirim həcminin Türkiyəni qane etməməsi ilə bağlıdır.

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# 24 saatın düşmənçiliyi

**Qərara gəlmişəm ki, yazılarımın əvvəlində, mövzuya keçməzdən əvvəl doğma dilimizi korlayan ifadələr haqda yazım. Əlbəttə ki, yeri gələndə. Bu dəfə “təxliyə” ifadəsi haqda yazmaq istəyirəm. Ekranı, efiri və qəzetlərin səhifələrini zəbt etmiş bu ifadənin dilimizdə belə dərin kök salmasını heç cür başa düşə bilmirəm. Tez-tez eşitdiyimiz və oxuduğumuz bu ifadələri xatırlayın: “Sel ərazini basdığına görə əhali təhlükəsiz yerə təxliyə edilib”, “binada çatlar əmələ gəldiyinə görə sakinlər təxliyə edilib”, “zavodda kimyəvi maddənin sızmasına görə işçilər təxliyə ediliblər” və s. Məgər bu cür situasiyalarda “insanlar həmin yerdən köçürülüb” və ya “fəhlələr zavoddan çıxarılıb” kimi öz dilimizdə olan və çox uyğun ifadələri işlədə bilmərik? Dilimizə qarşı həqarət və haqsızlıq edirik.**

Yazının əsas mövzusu isə yenə də siyasi məhbus məsələsidir. Bu məsələdə kimin udduğu, kimin uduzduğuna bir daha aydınlıq gətirmək istəyirəm. Əlbəttə ki, heç kim azadlıqdan məhrum olmaq, həbsxana həyatı yaşamaq istəməz, ancaq nəzərə alsaq ki, siyasi məhbusların mütləq əksəriyyəti bu yola çıxanda, onu gözləyən hər cür məhrumiyyətləri, riskləri gözəltina almış və psixoloji cəhətdən hazır olur. Ona görə də məhbəs həyatı onlara başqaları kimi ağır və dəhşətli gəlmir. Burada əsas olan odur ki, siyasi həbslər hakimiyyətdən çox siyasi məhbusun işinə yarayır və məqsədlərinə xidmət edir. Siyasi məhbusun azadlıqda olarkən fəaliyyətinin məğzi nədən ibarətdir? Əlbəttə ki, mövcud rejimi hakimiyyətdən kənarlaşdırmaq! O, buna necə nail olmaq istəyir? O yerli və uluslararası toplumun diqqətini iqtidarın mahiyyətinə cəlb edərək, onun neqativ olduğunu izah etməklə və özünə dəstək qazanmaqla buna nail olmaq istəyir. Sizcə, o, bunu azadlıqda olduqda yaxşı bacarır, yoxsa həbsxanada olduqda? Əlbəttə ki, həbsxanada olanda. Bir var deyəsən ki, bu antidemokratik hakimiyyətin mahiyyəti mürtəcedir, o, rəqiblərini repressiya edə bilər, bir də var ki, ona rəqib olduğun üçün səni şərləyib həbsxanaya atırlar. Birinci halda sənə inanmayanlar tapıla bilər, ancaq ikinci halda bunu hamı qəbul edəcək və nəticədə də iqtidarın çox qorxduğu yerli və uluslararası toplumun basqıları artacaq.

Yazı üslubumun xarakterinə uyğun olaraq yenə də, obrazlı ifadədən yararlanacam. Tutaq ki, bir iş adamının əlində 100 min dollar pulu var. O, bu pulları işə yatırıb gəlir əldə etmək istəyir. Ancaq onun işi o qədər də rəvan getmir. Gah ziyana düşür, gah “aldım qoz, satım qoz” nəticəsizliyi ilə üz-üzə qalır, gah da umduğu qədər qazanc götürür. Bütövlükdə çox çətin və riskli işdir. Çünki stabil gəlir götürməsi qarantili deyil. Bir də var ki, həmin iş adamı həmin pulları yüksək faiz verən çox etibarlı banka qoyub. O, daha gecəsini gündüzə qatıb ora-bura tüyünmür, uğursuz sövdələşmə riski aradan qalxıb, bütün günü arın-arxayın yatıb-dincəlir, əylənir, yeyib-içir, ancaq ona çatacaq pulları aybaay rahatca götürür. Bax, siyasi məhbus məsələsi də eynicədir. Sən burada yatırsan, ancaq “yüksək bank faizləri” nizamlı şəkildə gəlməkdədir. Bir Azərbaycan iqtidarına dünyadan gələn basqıların sərtliyinə və çoxluğuna diqqət edin. Duruş gətirmək çox çətindir, baxmayaraq ki, canlarını dişə tutub birtəhər dözürlər. Həbsdə olan siyasi məhbuslar azadlıqda olsaydılar belə situasiya yarada bilərdilərmi? Qətiyyətlə deyirəm ki, onlar bunu bacarmazdılar.

Bir dəfə biri gecə saat 3-də dostuna zəng edir. Dostu yuxulu-yuxulu saata baxır, niyə zəng etdiyini soruşmamış “saat 3-dur, belə gec zəng eləməkmi olar?” deyib onu danlayır. O da “bağışla, mən elə bilirdim ki, biz bütün 24 saatı dostuq” deyib dəstəyi asır. Bizi hakimiyyət özünə düşmən hesab edir. Ona görə də həbsxanaları doldurub. Hərçənd ki, bizim heç kəslə düşmənçiliyimiz yoxdur. Bir halda ki, iqtidar belə hesab edir, elə olsun. Biz azadlıqda olanda “düşmənçiliyimiz” gündə bir-iki saat (bəzən heç o da olmurdu) davam edirdisə, indi 7/24 davam edir. Bayaq dediyim səbəbə görə. Necə deyərlər, istədiyimiz yar idi, yetirdi pərvərdigar.

❑ Tofiq YAQUBLU

**Martın 17-də Bakı Ağır Cinayətlər Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin məhkəmə prosesi davam etdirildi.**
**Rasim Sadıqovun sədrliyi ilə 11:00-da başlayan prosesdə ilk olaraq, İntiqam Əliyev çıxış etdi. O, zala müraciət edərək, əvvəlki məhkəmə iclasında zərərçəkmiş Gülşən Orucova və nümayəndəsi Nemət Heydərovun işlətdiyi təhqiramiz ifadələrlə bağlı üzr istədi: “Keçən prosesin sonunda yanlış hərəkətlər oldu. Baş verənlərlə bağlı öz adımdan bütün zaldakı iştirakçılardan üzr istəyirəm.**



# İntiqam Əliyev məhkəməsində sərt danışdı

## Hüquq müdafiəçisi hakimə etiraz etdi və ifadələrin yarımçıq dayandırılmasını istədi

Zərərçəkmiş təxribat törətməyə cəhd etdi. Hər kəsdən belə təxribatlara uymamağı xahiş edirəm. Hazırda çoxlu sayda insan bayırda qalıb. Zal kiçik olduğundan daxil ola bilmirlər. Proses böyük zalda keçirilməlidir. Bizdəki məlumata görə, hazırda böyük zalda proses keçirilmir. Cəmiyyətin əsas diqqəti bu məhkəməyədir. İnsanların ayaqüstə qalmağından çox narahat oluram. Zal dəyişdirilməlidir”.

**Hakim böyük zalda proses aparıldığını qeyd etdi. İ.Əliyev çıxışına davam etdi:** “Müdafiə tərəfi olaraq, məhkəmə tərkibinə etiraz edirik. İndiyə qədər verdiyimiz vəsatətlər ya təmin olunmayıb, ya da baxılmamış saxlanılıb. Hakimin proses zamanı davranışları açıq şəkildə qərəzli olduğunu göstərib. Sübutlarla bağlı vəsatət əsassız şəkildə rədd olundu. Keçən prosesdə isə Rasim Sadıqov zərərçəkmişin ifadəsi zamanı verdiyimiz suallara müdaxilə edirdi. İttiham və müdafiə tərəfinin çəkişməsinə şərait yaradılmalıdır. Əgər bu belə olmursa, deməli, hakim qərəzlidir. Əvvəlki prosesdə Gülşən Orucova provokasiya etdi. Məhkəmə sədri müdaxilə etmədi və qəflətən məhkəməni təxirə saldı. Hakim obyektiv olmalıdır. Amma hakim burada ittiham tərəfinin vəkili funksiyasını icra edir. Ona görə də prosesə sədrlik edə bilməz. Onsuz da məhkəmədə kimin sədr olmasının önəmi yoxdur. Çünki qərarlar başqa yerdə qəbul edilir. Amma yenə də siyasi sifariş yerinə yetirdiyinə görə sədrə etiraz edirik”.

**Dövlət ittihamçısı etirazı əsassız hesab etdi. O bildirdi ki, vəsatətlər təmin edilmirsə, buna görə etiraz etmək qəbuledilməzdir. Prokuror ötən prosesdə baş verənlərə də münasibət bildirdi:** “Əlbəttə, təhqir düzgün deyil. Amma zərərçəkmiş hədsiz dərəcədə yükləndi. Mətbuat və sosial şəbəkələrdə üstünə gəlirlər”.

Daha sonra məhkəmə sədrinə verilən etiraza baxıldı. R.Sadıqov qanunvericiliyə uyğun olaraq, etiraz zamanı sədrin zalda qaldığını, qərarın köməkçi hakimlər tərəfindən qəbul edildiyini bildirdi. Nəticədə sədr zalda qaldı. Digər hakimlər müşavirəyə getdilər. 5 dəqiqəlik müşavirədən sonra vəsatətin baxılmamış saxlanılması barədə qərar qəbul edildi.

**Proses müdafiə tərəfinin zərərçəkmiş Əfsanə Orucovaya verdiyi suallarla davam etdi. Əksər suallara zərərçəkmiş “xatırlamıram, yadımda deyil” tipli cavablar verirdi. Vəkil Şəhla Hümbətovanın “deyirsiz ki, pulu çıxarıb bacıma verirdim, o da İntiqam müəllimə çatdırırdı. Bacınızın İntiqam müəllimə pul verdiyini görmüsünüz” sualına Ə.Orucova maraqlı cavab verdi:** “Bacım mənə məbləği dediyi vaxt pulu çıxarırdım. Ofisdə Gülşənə verirdim. Pulu alandan sonra bacım İntiqam müəllimin otağına keçirdi. Pulu verib-vermədiyini görmürdüm”.

**Prosesin bu anında İ.Əliyev vəkilinin suallarını kəsərək, hakimdən söz istədi. O, ifadələrin yarımçıq dayandırılmasını xahiş etdi:** “İndiyə qədər çoxlu sayda məhkəmələrdə iştirak etmişəm. Əvəz Zeynallı, NİDA-çılar, Yadigar Sadıqov və digərlərinin məhkəməsində fikirləşirdim ki, niyə bu qədər əziyyət çəkirlər... Hamıya məlumdur ki, Əvəz bəy yazılarına görə həbs olunub, NİDA-çılar, Yadigar Sadıqov şərlənib. Abgül Süleymanov və digərləri narkotik çəkən deyillər. İndi də hər şey bəllidir. Mənə önəmli olan zaldakı insanlardır. Artıq hər kəsə də hər şey bəllidir. Əfsanə Orucova bacısı Gülşənin əməllərinin qurbanı olub. Bundan sonra onun dindirilməsinin tərəfdarı deyiləm. Nə deyilsə, onu məhkəmədə deyəcək. Onların ifadələrinin dayandırılmasını xahiş edirəm. Bir şeyi qeyd edim ki, bunların qarşısına boş cədvəllər qoyublar. Guya boş əmək haqqı yazılıb. Həbs olunacağımı bildirim. Əgər var idisə, niyə saxlayırdım? Yəni bu qədər absurd şeylər var. Digər zərərçəkmiş Gülnar Mehdiyevanın da istintaqdakı ifadəsi elan olunsun. Özü gəlməsə də, razıyıq”.

**Gülşən Orucova çıxışında şəxsi həyatına müdaxilə edilməsində İntiqam Əliyevi günahlandırdı:** “Necə prosesdir ki, ifadə veririk. Əgər belə idisə, əvvəlcədən deyilərdi ki, ifadə verməyək. Artıq sona çatanda belə deyilir. İntiqam müəllimin həbsinin səbəbini özündən başqa heç kəs yaxşı bilə bilməz. Keçən prosesdə burada təhqirlər oldu. Şəxsi həyatıma müdaxilələr olur. Mətbuat və sosial şəbəkələrdə müzakirə mövzusu oluram. Bu işlər birbaşa İntiqam Əliyev tərəfindən təşkil olunur”.



G.Orucovanın fikirləri zalda gülüş və hiddətlə qarşılandı. Hakim növbəti prosesdə zərərçəkmiş Gülnar Mehdiyevanın məhkəməyə gətirilməsi barədə qərar qəbul edildiyini elan etdi.

Müdafiə tərəfi bir sıra vəsatətlərlə çıxış etdi.

Vəkil Şəhla Hümbətova istintaq orqanının axtarış zamanı götürdüyü sənədlərin qaytarılması barədə yenidən vəsatət verdi. Vəkil lazımi sənədlərin siyahısını da məhkəmə heyətinə təqdim etdi. Prokuror vəsatətə münasibət bildirərkən, təmin edilməsinə heç bir problem görmədiyini qeyd etdi.

**Müdafiə tərəfi qrant müqavilələrinin qeydiyyatdan keçirildiyi Ədliyyə Nazirliyinin Reyestr Xidmətinin sənədlərinin alınmasını məhkəmə heyətindən tələb etdilər. Vəkil Ş.Hümbətova 2013-cü ilin əvvəllərindən etibarən Ədliyyə Nazirliyinin rəsmi saytından qeydiyyatdan keçən qrant müqavilələrinin çıxarıldığını bildirdi:** “Bu bir növ QHT-lərə qarşı hücumların tərkib hissəsi idi. İttiham aktında 13 qrant müqaviləsinin qeydiyyatının olmadığı bildirilir. Nazirliyin rəsmi saytından bunlar çıxarılıb. Biz o məlumatları yenidən əldə etdik. Gürcüstanda notariusdan çıxardıq. Təsdiq etdilər. Ölkəmizdə belə sənədlər olanda qorxurlar. Ona görə Gürcüstana üz tutduq. Nazirliyin saytından çıxarılan qrant müqavilələri olan cədvəldə görünür ki, ittiham aktında olan 13 qrant müqaviləsi HMC adına qeydiyyatdan keçirilib. Biz həmin məlumatların araşdırılıb, iş materiallarına əlavə edilməsini tələb edirik”.

**Təqsirləndirilən şəxs vəsatətə münasibət bildirdi:** “Ədliyyə Nazirliyi cəmiyyətdə fəal olan, insan hüquqlarını qoruyan təşkilatları qara siyahısına salıb. Nazirlikdə saxtakar sistem var. Qrant müqavilələri qeydiyyatdan keçən sistemi qəsdən dağıdıblar. İttiham aktında tez-tez İnsan Hüquqları Evinin adı hallanır. Ona görə ki, bu qurum ölkəmizdə insan haqlarının qorunmasına dəstək verir”.

İ.Əliyev Gülşən Orucovanın onun şəxsi həyatına müdaxilə etməsi ilə bağlı iddiasına münasibət bildirmək istədi. Hakim bu fikirlərə inanmadığını qeyd etdi.

Dövlət ittihamçısı qaldırılan vəsatətlərdə yeni məlumatlar olduğundan münasibət bildirməyi doğru hesab etmədi. Məhkəmə heyəti vəsatətlərdəki yeni məlumatlarla tanış olmaq üçün prokurora vaxt verdi.

**Hakim növbəti prosesin 31 mart saat 14:00-a təxirə salındığını elan etdi.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015

**Martın 17-də Milli Məclisdə hökumətin 2014-cü illə bağlı hesabatı müzakirə edilib. Spiker Oqtay Əsədov Baş nazir Artur Rəsizadəni, hökumət üzvlərini və deputatları İlaxır çərşənbə münasibətilə təbrik edəndən sonra Azərbaycanın iqtisadi-siyasi vəziyyəti ilə bağlı giriş nitqi söyləyib.**



# Baş bankir parlamentə gəldi və pessimist danışdı

## Elman Rüstəmov dedi ki, manatın ucuzlaşması neftlə əlaqədardır və neftin ucuzlaşması hələ davam edəcək

O bildirib ki, Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası ötən il də uğurla həyata keçirilib. Spikerin sözlərinə görə, Azərbaycanda makroiqtisadi sabitlik qorunub saxlanılıb: "İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ölkəmizin dünya iqtisadiyyatına interqasiyası davam etdirilib. 2014-cü ildə ÜDM-in istehsalında 2.8 faiz artım əldə edilib. Dünya iqtisadiyyatı üçün o qədər əlverişli olmayan bir zamanda bu məqbul nəticə sayıla bilər. Ölkənin qeyri-neft sektorunda inkişaf 7 faiz təşkil edib. Ötən il iqtisadi artım bütövlükdə qeyri-neft sektorunun hesabına təmin edilib". **O.Əsədov qeyd edib ki, vacib məsələlərdən biri də odur ki, Azərbaycan iqtisadiyyatı investisiya qoyuluşları üçün cəlbedici olaraq qalıb:** "Ötən il sosial-iqtisadi və infrastruktur layihələrinin həyata keçirilməsinə yönələn 22 milyard manata yaxın investisiyanın 59 faizi daxili, 41 faizi isə xarici investorların payına düşüb. Valyuta ehtiyatları 50 milyard dollardan çox olub ki, bu da ölkənin 3 illik idxalına bərabərdir".

**Daha sonra baş nazir Artur Rəsizadə Nazirlər Kabinetinin 2014-cü ildəki fəaliyyəti ilə bağlı hesabatını təqdim edib. Baş nazir bildirib ki, ölkədə iqtisadiyyatın inkişafı ötən ildə də uğurla davam etdirilib:** "Şəhid və müharibə əlillərindən olan 172 ailəyə yeni mənzil, 1443 avtomobil verilib. Məcburi köçkünlər üçün 6 yeni qəsəbə, 111 çoxmərtəbəli binadan ibarət olan yaşayış kompleksi salınıb. Bununla da 4000 ailə yeni mənzillə təmin edilib. Ölkədə yeni yaradılmış müəssisələrin sayı 9 mini ötüb. Manat sabitliyini qoruyub saxlayıb. 230-dan artıq sənaye müəssisəsi açılıb. Kənd təsərrüfatı layihələrinə 47 milyon manat vəsait ayrılıb. Əhalinin hər nəfərinə düşən əlavə dəyər 6300 manatı ötüb".

**A.Rəsizadə həmçinin çıxışında qarşıdan gələn V çağırış parlament seçkilərinə də toxunub:** "Bu seçkilər ölkənin ictimai-siyasi həyatında çox mühüm hadisə olacaq. Mən növbəti çağırışda da namizədliyini irəli sürəcək deputatlara uğurlar arzulayıram".

**Deputat Qənirə Paşayeva təəssüflə qeyd edib ki, Tovuz rayonunun cəbhəyanı kəndlərində hələ də qazlaşma işləri aparılmayıb:** "Müvafiq dövlət qurumlarının əsas diqqətini buna yönəltmək istəyirəm. Çünki bu kəndlərin qazlaşdırılması hökumətin qarşısında əsas vəzifə kimi qalmaqdadır. Cəbhəyanı kəndlərin sakinlərinə qazlaşdırma ilə bağlı vədlər verilsə də, hələlik bu vədlərin çoxu yerinə yetirilməyib". **Deputat bununla belə, Tovuz rayonunda bəzi məsələlərin, xüsusilə də kəndlərdə artezian quyularının qazılması istiqamətində mühüm işlərin görüldüyünü söyləyib. Bir çox qaz xətlərinin köhnəldiyini deyən millət vəkili qeyd edib ki, bunun nəticəsində də sızmalar baş verir:** "Rayonda baş verən son partlayışlar da elə bunun nəticəsidir. Bununla bağlı ortaya çıxan problemlərdən biri də yaşayış məskənlərində icbari sığoratalanmanın həyata keçirilməməsidir. Partlayış baş verən evlər sığortalanmadığı üçün ev sahibləri dövlətdən konpensasiya ala bilmirlər. Bu problemin təcili surətdə həll edilməsi vacibdir".

**Fazil Mustafa çıxışında ilaxır çərşənbədə qapılara papaq atıldığını xatırladıb və hökumətə bəzi mesajlarını çatdırıb:** "Bəzilərinin hasarının çox hündür olması və qapılarının kilidli olduğu üçün bu papaqlar o qapılara atılır ki, həmin evlərin hasarından keçmək mümkün olur. Papaqlar o qapılara atılır ki, orada müəllimlər, həkimlər, işsizlər, neftçilər yaşayır. İndi bu məsələni müzakirə etmək lazımdır ki, orta təbəqədən olan insanlar papaqların içini nə ilə doldursunlar. Manatın devalvasiyası prosesindən sonra əhalinin yaşayış səviyyəsi xeyli aşağı düşüb. Aztəminatlı ailələr banklardan kredit götürüb, ancaq dolların bahalaşması nəticəsində krediti ödəməkdə çətinlik çəkir. Azərbaycan hökuməti isə bu məsələlərlə bağlı aydınladıcı və ciddi izahlar vermir ki, həmin kütlə gələcəyə azacıq da olsun, ümidlə baxsın. Məncə, bu problemi həll etmək lazımdır". **F.Mustafa daha sonra deyib ki, dövlət başçısı müəllim maaşının 33% artımı ilə bağlı sərəncam verib. Təəssüf ki, bu sərəncam hələ də həyata keçirilmir. O bildirib ki, müəllimlər həm yanvar, həm də fevral ayının maaşlarını artımla ala bilməyiblər:** "Axı bu kateqoriyadan olan şəxslərin başqa sahələrdən gəliri yoxdur. Məktəblərdə pensiya yaşına çatmış müəllimləri taleyin ümidinə buraxmışıq". **Deputat dünya təcrübəsindən misal gətirib və bir sıra təkliflər irəli sürüb:** "Türkiyədə həmin müəllimlərə kiçik biznes qura bilmələri üçün təzminat verilir. Ancaq bizdə müəllim pensiyaya çıxanda həmin vəsait ona verilmir. Məhz buna görə də müəllim pensiyaya çıxanda başqa bir işlə məşğul olmur".

**Spiker F.Mustafanın çıxışına maraqlı reaksiya verib:** "Sən fikirlərini milli mentalitetə toxunan məsələ kimi dedin. Vaxtilə bacadan da papaq atırdılar. Narahat olma, hansı qapıya papaq atsan, inanmıram ki, sənin papağın boş qalsın".

**İqbal Ağazadə isə çıxışında bayrama təsadüf etdiyindən heç kimin xətrinə dəymək istəmədiyini bildirib. Ancaq hökumətə ünvanlı bir neçə təklifinin olduğunu deyib:** "İqtisadiyyatın fərqli doktrinasını hazırlamağı təklif edirəm. Hökumət ciddi düşünməlidir ki, ayrı-ayrı strukturlar təmərküzləşməlidir. Azərbaycan kənd təsərrüfatının inkişafı istiqamətində fərqli bir rels üzərinə çıxarılmalıdır. Kənd təsərrüfatında həvəsləndirmə olmalıdır, xaricə çıxarılan mallarla əlaqədar dövlət əlavə güzəştlər etməlidir ki, insanlar həvəslənsin. Daxili bazarda məhsulların böyük əksəriyyəti yarımfabrikat şəklində Azərbaycana gətirilir və burada qablaşdırılır. Ona görə də qiymətlər artır. Hökumət heç bir sahibkara "sən qiyməti artırma" deyə bilməz. Hökumət təbii rəqabət mühiti yaratmaqla, inhisarı aradan qaldırmaqla qiymət artımının qarşısını ala bilər. Ölkədə ciddi rəqabət problemi var. Deyirlər ki, bu qiyməti niyə qaldırmısan? Sizə nə..?"

**Fəzail Ağamalı Salyan rayonundakı problemlərin, xüsusilə də yol çəkilişi ilə bağlı yarımçıq qalan layihələrin həyata keçirilməsini istəyib.**

**Siyavuş Novruzov ötən ilin uğurlu olduğunu dedi və bayram günündə müzakirələri çox uzatmayıb, hesabatı qəbul etməyə çağırıb:** "İnşallah, builki seçkilər yekunlaşar, seçilənlər gələn il hökumətin hesabatını geniş müzakirə edər". S.Novruzov baş naziri onun prezident tərəfindən ordenlə təltif olunması münasibətilə təbrik edib. Sonra isə onun "Biz səs verək, hesabatı qəbul edək, Fazil müəllim də getsin, papağını atsın" deməsi zalda gülüşə səbəb olub.



### Baş nazir hökumətin hesabatını təqdim etdi; müzakirələrdə ilginc mübahisələr oldu

O.Əsədov isə "Siyavuş, dedin gələn il müzakirə edərik. Birdən kiminsə ürəyində sözü qalar, mən də günah yiyəsi olaram" deyib müzakirələri davam etdirib.

**Musa Quliyev bildirib ki, əsas problemlərdən biri Qarabağ əlillərinin pensiya təminatı ilə bağlıdır və pensiya-sığorta sisteminə keçid zamanı bəzi uyğunsuzluqlar yaranıb:** "Hansı Qarabağ əlilinin 5 illik əmək stajı var idi, onlar pensiya alırdılar. 5 il stajı olmayanlar isə pensiya yox, müavinət alır. Bu müavinət 60 manat məbləğindədir. Stajı az olan Qarabağ əlillərinə verilən müavinətin də minimum pensiya həddinə çatdırılmasını təklif edirəm". O, ölkədə sosial evlərin tikilməsinin vacibliyini vurğulayıb.

**Zahid Oruc deyib ki, 21 fevraldan sonra manatın dollara görə kursunda aparılmış 33.5 faizlik devalvasiya qərarından sonra biz hökuməti belə geniş tərkibdə ilk dəfədir ki, parlamentdə görürük və buna görə bir sıra suallara cavab verilməsi millətimizin gözləntilərinə, nigarançılığına son qoyardı. Deputat zorakı vasitələr və müdaxilələr vasitəsilə qiymətin diktəsinə etiraz edib:** "Bu, sovet iqtisadiyyatına qayıtmaq demək olardı. Ona görə mən hökumətdən məhz iqtisadi vasitələrlə, yəni gömrük rüsumlarını, vergi dərəcələrini və bank faizlərini dəyişərək əhalinin maraqlarını qorumağa çağırıram və belə olacağı təqdirdə həqiqətən də zəruri tələbat mallarının qiymətini qoruyub saxlamaq mümkün olacaq. Ona görə də büdcəyə yenidən baxılması zərurətini qəbul etməliyik".

**Z.Oruc çıxış edən zaman spikerlə mübahisə də baş verib. Deputat çıxışlar üçün ayrılmış 5 dəqiqəlik reqlamentdən beş dəqiqə artıq danışmaq istədiyini bildirib və hətta bu məqsədlə bəzi Həccdə olan həmkarının öz çıxış vaxtını da ona verdiyini qeyd edib. O əlavə edib ki, parlament rəhbərliyi də bu məsələyə xoşməramlı yanaşacaq. Spiker Oqtay Əsədovun buna cavabı isə çox maraqlı olub:** "Siz nə vaxtdan Hacı olmusunuz? Sizə kim vaxtını verib?" **Zahid Oruc belə cavab verib:** "Deputat həmkarım Hacı Madər dedi ki, inşallah, növbəti seçkilərdə ikimiz də yenidən deputat seçilsək, həmin beş il müddətində də öz çıxış hüququmu sənə verəcəm". Spiker də "Elə buna görə də əlavə vaxt vermirəm" deyə, deputata cavab verib.

**Əli Məsimli deyib ki, dollarla götürülən kreditlərlə bağlı məsələ açıq qalıb:** "Burada çətinlik çəkənlərin hər ikisi xalqdır. Ortaq məxrəcə gəlinməlidir. Hökumətin bu sahədə görəcəyi işlər vacibdir. Hökumət yaxın 8-9 ay ərzində devalvasiyanın yaratdığı müsbət şanslardan istifadə edərsə, o zaman nəyəsə ümid etmək olar. Əks halda, qiymətlərlə xərclərin artması devalvasiyanın müsbət effektlərini azaldacaq". **Deputat bildirib ki, idxalın qarşısını almaq və ixracı stimullaşdırmaq lazımdır. Onun fikrincə, sahibkarlara aşağı faizli kreditlərlə yanaşı, dövlət tərəfindən də əlavə vəsait ayrılmalıdır:** "Dövlət Neft Fondunun 2 milyardlıq vəsaiti məhz idxalı əvəz edən məhsulları istehsal edən, ixrac potensialını artıran sahibkarlara verilməlidir".

**Sabir Rüstəmxanlı isə bəzi həmkarlarının çıxışına tənqidi yanaşıb:** ""Bəziləri hökumətin hesabatından elə danışırlar ki, sanki bunlar Nazirlər Kabinetinə hesabat verirlər". **O bildirib ki, Azərbaycanda məmur-vətəndaş münasibətləri olduqca aşağı səviyyədədir. S.Rüstəmxanlının sözlərinə görə, bəzən hansısa nazir, yaxud digər məmur deputatların zənglərinə aylarla cavab vermir:** "Milli Məclisin bundan əvvəlki iclasında da məmurların yaratdığı vəziyyətdən söz açmışdım. Hansısa quruma gedirsən, orada o qədər polis dayanır ki, sanki qalanı qoruyurlar".

**İclasda Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov da danışıb və manatın ucuzlaşması məsələsinə aydınlıq gətirib. E.Rüstəmov manatın devalvasiyasını neftin ucuzlaşması ilə əlaqələndirib. Baş bankir 2008-ci ildə də neftin qiymətinin ucuzlaşmasına toxunaraq qeyd edib ki, o zaman manatın sabitliyi təmin edildi:** "O zaman biz manatın sabitliyini təmin etdik. Biz təxminən 1 milyard manat sərf edərək manatın sabitliyini saxladıq. O zaman neftin qısa zamanda qiyməti sabitləşdi və biz xərclədiyimiz vəsaiti geri qaytara bildik". **E.Rüstəmov qeyd edib ki, 2014-cü ildən bəri neftin qiymətinin iki dəfə ucuzlaşması yeni bir fenomendir. O bildirib ki, ekspertlərin, beynəlxalq investisiya təşkilatlarının qiymətləndirməsinə görə, bu ucuzlaşma 80-cı illərin əvvəlində baş vermiş ucuzlaşmadı:** "Həm ekspertlərin, həm beynəlxalq investisiya banklarının proqnozuna görə, neftin ucuzlaşması hələ davam edəcək". **E.Rüstəmov banklara tövsiyələrini də verib.** "Banklar problemli kreditlərlə bağlı məsələləri həll etmək üçün müştərilərin ödəmə vaxtını kifayət qədər artırsınlar. Həmçinin banklar mümkün qədər faiz dərəcələrini aşağı salsınlar" deyə, bildirib.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015

## Bakıda gənc qadını gecəyarı küçədə sürüdülər

**Xəzər Universitetinin rektoru Hamlet İsaxanlının qızı Ülkər İsaxanlının döyülməsi videosu aranı qatıb. Hadisə martın 8-dən 9-na keçən gecə, səhərə yaxın Bakının mərkəzində baş verib. Azadlıq prospekti ilə Üzeyir Hacıbəyov küçəsinin kəsişməsində yerləşən restoranın qarşısında Ülkər İsaxanlı Zaur və Elin Məmmədov qardaşları tərəfindən vəhşicəsinə döyülüb.**



# Rektorun qızının döyülməsi barədə sensasion iddialar

### Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının övladı ilə bağlı baş verənlər ölkə gündəminə bomba kimi düşdü; Ülkər İsayeva sevgilisi tərəfindən sərt formada cəzalandırılmasını niyə gizlədib?; prokurorluq protest versə də, məhkəmə Zaur və Elin qardaşlarını ikinci dəfə də həbs edə bilmədi, amma...

Döyülmə səhnəsi "Təhlükəsiz Şəhər" Xidmətinin kameralarına anbaan düşüb. Video yayılandan sonra bəlli olub ki, Zaur və Elin qardaşları hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb və həbs edilmələri üçün məhkəməyə təqdimat verilib. Amma...

**Olayla bağlı hansı addımlar atılıb?**

Məlum olur ki, olaydan sonra, martın 9-da fakta görə Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin Ağır Cinayətlərin İstintaqı Şöbəsinin xüsusilə mühüm işlər üzrə baş müstəntiqi polis polkovnik-leytenantı Yasin Mikayıllının 14 mart 2015-ci il tarixli vəsatəti əsasında da ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirən Bakı Şəhər Prokurorluğunun müavini baş ədliyyə müşaviri Azər Əsgərov eyni tarixli təqdimatla məhkəməyə müraciət edərək 221.2.1-ci maddəsi ilə təqsirləndirən şəxs qismində cəlb edilmiş Məmmədov Zaur Muxtar oğlu barəsində həbs-qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edilməsini məhkəmədən xahiş edib. Daxil olan məlumata əsasən bildirilir ki, Məmmədov Zaur Muxtar oğlu 9 mart 2015-ci ildə, 04:25 radələrində qardaşı Elin Məmmədovla bir qrup şəxs halında sərxoş vəziyyətdə ictimai yerdə, Səbayel rayonu, Azadlıq prospekti ilə Üzeyir Hacıbəyov küçəsinin kəsişməsində heç bir səbəb olmadan tanışları İsayeva Ülkər Hamlet qızını idarə etdikləri Az 90 KU 050 dövlət nömrə nişanlı "Bentley" markalı avtomobildən zorla çəkib çıxarmaqla yerlə sürüyərək, əl və ayaqla zərbələr endiriblər. Hadisəni görən vətəndaşların müdaxiləsindən sonra Ülkər İsayeva taksiyə əyləşərək hadisə yerindən uzaqlaşmaq istəyən zaman, ona imkan verməyərək zorla taksi maşınından düşürdülərək yerlə sürüdülüb, təkrarən əl və ayaqla zərbələr yetiriblər. Bu zaman vətəndaşların müdaxiləsindən sonra Ü.İsayevaya təkrar təzyiq göstərilərək "Bentley" markalı minik avtomobilinə otuzdurularaq fiziki təzyiqə məruz qalıb.

Hüquq-mühafizə orqanları Z.Məmmədovu CM-in 221.2.1 (xuliqanlıq - ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik edən, vətəndaşlar üzərində zor tətbiq olunması və ya belə zorun tətbiq edilməsi hədəsi ilə müşayət edilən hərəkətlər etmə) maddəsində nəzərdə tutulan cinayət əməlini törətməkdə suçlu bilərək martın 12-də şübhəli şəxs qismində saxlayıblar. Martın 14-də ona CM-in 221.2.1-ci maddəsi ilə nəzərdə tutulan ittiham elan edilib. Həmin gün Bakı Şəhər Prokurorluğu onun və qardaşı Elin Məmmədovun barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün Xətai Rayon Məhkəməsinə təqdimat verib.

**Hakim Məmmədov qardaşları niyə azad edib?**

**Amma gözlənilənlərin əksinə olaraq Xətai Rayon Məhkəməsinin hakimi Raziyə Ataşova şəhərin mərkəzində, küçənin ortasında qadına əl qaldıran qardaşların məhkəməyədək azadlıqda qalması haqda qərar verib. Hakim arqument.az saytına açıqlama verməkdən belə əsaslandırmağa çalışıb:** "Mən sadəcə iddianın təmini tədbiri barədə məsələyə münasibət bildirmişəm". R.Ataşova bildirib ki, istintaq hələ yekunlaşmayıb: "Fakt varsa, cinayət sübuta yetiriləcək. Hazırda Bakı Apelyasiya Məhkəməsində işə baxılır, nəticəni gözləsəniz daha yaxşı olar. O ki qaldı Ülkər İsayevaya, onu dindirmişəm və heç bir şikayəti olmayıb. O bildirib ki, döyülməmişəm, sadəcə, mübahisəmiz olub. Mən bir qərar verdim, onlar da məni sakitləşdirib evə aparıblar. Yəni o, döyülmək faktını qəbul etmir. Biz də tərəfləri dindirib məhkəmə başlayana qədər onları sərbəst buraxmaq barədə qərar qəbul etmişik".

**Aranı qatan videonu kim yayıb?**

Ülkər İsayevanın döyüldüyü anın görüntülərinin mətbuata sızdırılması haqda da bəzi versiyalar var. Bildirildiyinə görə, videonu mətbuata Ülkər İsayevanın keçmiş həyat yoldaşının hüquq-mühafizə orqanlarında işləyən qohumu ötürüb. Həmin görüntülər küçədəki polis müşahidə kamerası tərəfindən qeydə alınıb. Ülkər İsayeva ərindən 2014-cü ilin yayında Nəsimi Rayon Məhkəməsinin qərarı ilə boşanıb. Qərara əsasən bu izdivacdan dünyaya gələn qız övladı anası ilə birgə qalıb. A.Əhmədzadə ilə Ü.İsayeva arasında mülk davasının da olduğu vurğulanır. Həmin mülk davasına görə məhkəmə qaydasında A.Əhmədzadənin ölkədən çıxışına yasaq qoyulması xəbəri də var.

**Ülkər İsayeva şikayətçi olmasa da, indi qərar dəyişib!**

**Video yayılana qədər Ü.İsayeva susmağa üstünlük verib, qardaşlardan şikayətçi olmayıb. Görünür, Ü.İsayevanın susması üçün ciddi əsasları olub. Amma məsələ ictimailəşəndən sonra qərarını dəyişib. Bunu hafta.az-a Ü.İsayevanın yaxın rəfiqəsi bildirib. Adının çəkilməsini istəməyən xanım maraqlı faktlar açıqlayıb:** "Həmin gün Ulya *(Ülkər İsayeva nəzərdə tutulur-E.M.)* 8 martı sevgilisi Zaur Məmmədovla qeyd edirdi. Gecə klubunda başqaları da var idi. Eyni zamanda Elin. Əvvəlcə hər şey çox yaxşı idi. Səhərə qədər əylənmək istəyirdilər. Amma sonra vəziyyət dəyişdi. Mən bildiyimə görə, Ülkərlə başqa bir oğlan barəsində söhbət çıxıb. Lakin özü bunu boynuna almır. Onlar Zaurla uzun müddətdir sevgilidirlər. Və Zaurgilin necə əsəbi, "özündən tez çıxan" olduğunu bilənlər çoxdu. Onların kimin oğlu olmasını da hamı yaxşı bilir. Muxtar Şirinoviçin adı Bakıda çox məşhurdur. Zaurgil imkanlı adamlardı. Bakının bütün gecə klublarında onları yaxşı tanıyırlar. Ülkər onunla münasibətdə olduğunu heç kimdən gizlətmirdi onsuz da. Gecələr şəkillər çəkdirib rahatca instagrama qoyurdu. Onlarla birlikdə olduğunu hamıya nümayiş etdirmək istəyirdi. Çünki çoxlarının Zaur və Elindən necə qorxduğunu yaxşı bilirdi. İndi isə instagram səhifəsini bağlayıb".

**Ü.İsayevanın rəfiqəsi onu da bildirir ki, indi vəziyyət bir qədər dəyişib. Belə ki, döyülən qız əvvəlcə Zaur və Elin Məmmədovlardan şikayətçi olmasa da, hazırda atasının təzyiqi ilə qərarını dəyişməli olub:**

"Mən Ülkərlə danışdım. Bu gün vəziyyət tam dəyişə bilər. Evdən ona təzyiq edirlər ki, şikayətçi olsun. Çünki bu məsələnin üstü artıq açılıb. Çox istəyirdilər ki, bu xəbəri heç kim bilməsin və sakitcə həll edilsin. Lakin gizli kamera çəkilişinin olmasından məlumatsız idilər. Ülkərə hər iki tərəfdən ciddi təzyiqlər var. Amma artıq gecdir, yəqin ki, şikayətçi olacaq. Onu da deyim ki, hər adamın "duxu" çatmaz Zaurgildən şikayətçi olmağa. Bakıda onların qarşısına hər oğul çıxa bilmir. Çox əliaçıqdırlar, cəsarətlidirlər, lakin onların bir qadın döyməsi məni də şoka saldı".

**Rektorun qızını döyənlər "Zolotoy" Muxtarın uşaqlarıdır**



Ü.İsayevanı döyən qardaşlar kriminal aləmdə "Zolotoy" Muxtar adı ilə tanınan Muxtar Məmmədovun oğullarıdır. Kriminal aləmdə kifayət qədər tanınmış simalardan sayılan "Zolotoy" Muxtarın Bakıda, Moskvada və digər şəhərlərdə geniş biznes şəbəkəsinə sahib olduğu bildirilir. Zaur və Elin Məmmədov qardaşları əkizdirlər. Ataları Rusiyada yaşayır.

Anaları Gülnarə Əlayi (qızlıq soyadı) 1992-93-cü illərdə AzTV-də işləyib. Həmçinin Moskva Dövlət Televiziyasının Bakı bürosunda çalışıb. Deyilənə görə, Muxtar Məmmədov onun ikinci həyat yoldaşıdır. Elin və Zaur onun birinci nikahından dünyaya gəliblər. M.Məmmədov əvvəllər Sərhəd Xidmətində çalışıb. Qardaşlar Rusiyada ali təhsil aldıqdan sonra Bakıya qayıdıblar və turizm biznesi qurublar. Onların restoran biznesi ilə məşğul olduqları da bildirilir.

**Muxtar Məmmədov Əli Ansuxskinin şəriki olub**

M.Məmmədovun 1996-cı ildə paytaxtın 28 May küçəsində yaşadığı evin qarşısında odlu silahla qətlə yetirilən, əslən balakənli Əli Ansuxskinin şəriki olması xəbəri də var. Deyilənə görə, Muxtar Məmmədovla Əli Ansuxskinin qohumluq əlaqələri də mövcuddur. Onun hazırda Rusiyada böyük metal biznesinin olduğu da söylənir. M.Məmmədovun oğullarının hansı səbəbdən universitet müəlliminə qarşı belə hərəkət etməsi məlum olmasa da, onların arasında daha əvvəldən isti münasibətlərin olduğu məlumdur.

Belə məlumatlar da var ki, övladlarının saxlanılmasından dərhal sonra Muxtar Məmmədov Azərbaycandakı əlaqələrini işə salıb. Cinayət faktını gizlətmək mümkün olmasa da, M.Məmmədov əlaqələrinin hesabına övladlarını istintaq dövründə həbsdən qurtara bilib. Xətai Rayon Məhkəməsinin hakimi Raziyə Ataşovanın verdiyi qərarla M.Məmmədovun övladları məhkəmə zalında azad ediliblər. Qeyd etdiyimiz kimi, qərardan protest verilib.

**Adları mətbuatın gündəminə gəldi, 11 min 600 manat cərimə̇ni ödədilər**

Ülkər İsayevanı döyən qardaşlar cinayətkar aləmə çox yaxındırlar. Bu xəbəri isə aznews.az yayıb. Onların iştirakı ilə bir neçə cinayət hadisəsinin baş verdiyi də bildirilir. Məlumata görə, bu yaxınlarda qardaşların yaxın bir dostu adam bıçaqladığından həbs olunub. Bildirilir ki, qardaşların Bakıda "ad çıxarması" təkcə özlərinin qoçaqlığı ilə bağlı deyil. Onların atası Muxtar Şirinoviç kriminal aləmin məşhur simalarındandır. Əsasən Dağıstanda yaşayan Şirinoviç istənilən "söhbəti" anındaca həll etmək gücündədir. Onun bu nüfuzu isə oğlanlarının "işlərini" daha da asanlaşdırıb. Qardaşlar Bakıda mübahisəli söhbətlərə baş qoşur və bundan xeyli pullar əldə edirlər. Araşdırma zamanı məlum olur ki, bir müddət əvvəl Bakıda qardaşlara 2 qapılı bahalı "BMW" markalı avtomobil hədiyyə ediblər. Rektorun qızının döyülərək aparıldığı "Bentley"in üzərindəki Az 90 KU 050 dövlət nömrə nişanı da həmin "BMW"də olub. Sonradan qardaşlar nömrə nişanını saxlamaqla "BMW"ni satıblar. Amma onların avtomobili satmağı o qədər də asan olmayıb. Çünki "BMW"nin cəriməsi, ödənilməyən 280 radarı olub. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polkovnik Vaqif Əsədovun sözlərinə görə, sürücü Elin Məmmədov idarə etdiyi "Bentley" markalı, Az 90 KU 050 dövlət nömrə nişanlı avtomobillə müxtəlif qayda pozuntuları törətdiyi üçün onun barəsində müvafiq tədbir görülüb. Belə ki, E.Məmmədov barəsində 94 Mərkəzi Müşahidə Xidmətinin qeydə aldığı radarı olub. Bununla bağlı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsində hər bir qayda pozuntusu üzrə qərar qəbul edilib. Bunun nəticəsində sürücü Elin Məmmədov 11 min 600 manat cəriməni dövlətə ödəyib. Bundan əlavə, 2014-cü ilin avqust ayında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin qəbul etdiyi qərarla Elin Məmmədovun sürücülük hüququ 6 ay müddətinə məhdudlaşdırılıb.

**Xətai Məhkəməsinin çıxardığı qərarı Bakı Apelyasiya Məhkəməsində dəyişdilər!**

**Dünən, martın 17-də saat 17:00-da Bakı Apelyasiya Məhkəməsində Elin və Zaur Məmmədov qardaşlarının məhkəməsi keçirilib. Məhkəmə önünə yığışan jurnalistlərə açıqlama verən Məmmədov qardaşlarının anaları Gülnarə Məmmədova deyib ki, övladlarının belə bir hadisə törədə biləcəyinə şübhə ilə yanaşır:** "Həmin görüntülərdə heç kimin üzü görünmür. Həmçinin maşının nömrəsi də düşməyib. Mən Ülkər İsayeva adlı qadın tanımıram. Oğlanlarımın da həmin qadınla münasibətlərinin olması barədə xəbərim yoxdur. Mətbuatda bizim bahalı avtomobilimizin olması barədə məlumatlar yayılıb. Qeyd edirəm ki, həmin avtomobil bahalı deyil".

Bakı Apelyasiya Məhkəməsindən əməkdaşımız Məhəmməd Türkmən bildirib ki, proses martın 18-nə təxirə salınıb. Bunu Məmmədov qardaşlarının anaları Gülnarə Məmmədova da jurnalistlərə təsdiqləyib.

Hüquq-mühafizə orqanlarından musavat.com-a daxil olmuş məlumata görə, siyasi rəhbərlik qərar vermədiyi üçün Elin və Zaur Məmmədovlarla bağlı məhkəmə qərar verə bilməyib.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Sərfəli Putin...

Azər RƏŞİDOĞLU

**Nəhayət ki, Rusiya prezidenti Vladimir Putin üzə çıxdı. Kreml sahibinin bir neçə gün ictimaiyyət qarşısına çıxmaması saysız-hesabsız şayiələrin yaranmasına səbəb olmuşdu. Bu məsələdə ən maraqlısı o idi ki, Putinin yoxa çıxması Kremlin əsas siyasi rəqibi Boris Nemtsovun qətlini də bir qədər unutdura bildi.**

Putinin yoxa çıxması nələrə səbəb oldu? Rusiya liderinin "qeybə çəkilməsi" ilə bağlı ən müxtəlif versiyalar irəli sürüldü. Hər bir versiyanın yaşamağa haqqı var. Lakin Putinin gözdən itməsi onun alternativinin kim olacağı sualını gündəmə gətirir. Perspektivdə hərbi xuntanın kölgəsi görünür. Bu isə hamını narahat etdi. Nüvə silahına malik olan xunta qorxuludur. Əgər Kremldə saray çevrilişi baş verərsə, Moskva MDB məkanında da "poqonluları" iqtidara gətirməyə cəhd göstərə bilər. Odur ki, "Rusiyadakı proseslər qorxulu sonluqla yekunlaşa bilər" proqnozunu irəli sürənlər elə də ifrata varmırlar.

Putinin "qeybə çəkilməsi" "bundan sonra nə baş verəcək" sualını da aktuallaşdırır. Lakin ehtimal etmək olar ki, Putin ən azı 2018-ci ilə - prezident seçkilərinə qədər öz postunda əyləşəcək.

Əslində Putin tarixə "Krımın fatehi" kimi düşdü. Krımın ruslara verilməsi ilə artıq Qərb təhlilçiləri də barışırlar.

İstisna deyil ki, Qərb analitikləri Krımın işğalı ilə barışmaq müqabilində Putinin iqtidardan qansız gedişi modeli üzərində düşünürlər. Belə gedişat elə Kremlin sahibinə də sərf edir. Putin şöhrətinin ən qaynar çağında könüllü gedərsə, sahib olduğu milyardları və övladlarının gələcəyini də xilas edə bilər.

Putin 2018-ci ildə də prezident seçilərsə, 2024-cü ilə qədər ölkəni idarə edəcək. İstisna deyil ki, Putin 2018-ci ildə geri çəkilmək barədə düşünə bilər. Kremlin sahibinin vəziyyəti elə də ürəkaçan deyil. Rusiyadakı mövcud güclü iqtisadi və siyasi böhran, dövlət institutlarının hazırkı vəziyyəti sistemin dağılmasına gətirib çıxara bilər. Bu halda Putin qanla devrilə bilər.

Putin iqtidardan devrilərsə, demokratik proses nöqteyi-nəzərindən, müdafiə naziri Serqey Şoyqu və Moskvanın meri Serqey Sobyabinin varis kimi şansları az görünmür. Administrasiya rəhbəri Serqey İvanov və Rusiya Təhlükəsizlik şurasının katibi Nikolay Patruşev həmçinin hakimiyyətə mümkün iddiaçılar arasında ola bilərlər.

Sergey İvanov Putindən daha qəddardır. Odur ki, onun hakimiyyətə gəlişi Rusiyada diktaturanı gücləndirə bilər. Putin hakimiyyətdən getməli olsa Dmitriy Roqozinin varis ola biləcəyi ehtimalı da səsləndirilir.

Rusiyanın seçki qanunlarına görə, yalnız parlamentdə təmsil olunmuş partiyalar - "Yedinaya Rossiya", Kommunist, Liberal-Demokrat və "Spravedlivaya Rossiya" partiyalarının prezidentliyə namizəd vermək hüququ var. Digər partiyalar isə namizəd vermək üçün son dərəcə qısa müddətdə 100 min imza toplamalı və Mərkəzi Seçki Komissiyasına verməlidirlər.

Putinin hakimiyyəti dövründə siyasi sistem daha çox avtoritar olub və prezidentin özü ətrafında cəmləşib. Prezident qarşıduran tərəflərin balansını özü saxlayıb. Az qala qəti şəkildə demək olar ki, o, həmçinin "post-Putin zəmanəsində nə olacaq" kimi diskussiyalara yol verməyib. Lakin Putinin daxili çevrəsində həmişə qapalı qalan ixtilaflar özünü Ukrayna böhranı zamanı büruzə verib və fevralın 27-də müxalifətçi Boris Nemtsovun qətli ilə daha da intensivləşib.

Ukrayna böhranına və Rusiyanın Qərblə qarşıdurmasına görə yüksəlişdə olan "qırğılar"la, iqtisadiyyat üçün cavabdehlik daşıyan, ölkə daxilində mötədillik və xariclə yaxınlaşma görmək istəyən "liberal qrup"un arasından keçir. Birincilər istənilən keçid prosesində öz üstünlüklərini saxlamaq üçün qızğın döyüş aparacaqlar.

Bu isə son nəticədə hərbi çevrilişlə başa çata bilər.

Beləliklə də Putinin devrilməsi nə Avropa, nə də ki, Rusiya üçün qurtuluş sayılmamalıdır. Demokratik qüvvələrin hakimiyyətə gəlmək şansları praktik olaraq yoxdur. Son illər ərzində Kreml onları sistemli şəkildə əzməklə məşğul olub. Sergey İvanov və onun bənzərlərinin iqtidara gəlişi isə heç kəsə, o cümlədən Azərbaycana müsbət gələcək vəd etmir. Nə qədər acınacaqlı olsa da, "dəli Putin"in iqtidarda qalması bu mərhələdə hamıya sərf edir. Bəlkə də "qeybə çəkilən" Putin elə dünyaya bu mesajı vermək istəyib. S.İvanov, S.Şoyqu, D.Roqozin, Y.Primakovla müqayisədə Putin "müqədəs mələyə" bənzəyir. Kənardan görünən budur ki, Putin çevik siyasi gediş edib və özünün hamıya sərf etdiyini sübuta yetirə bilib...

# AXCP Müsavatla "köhnə söhbəti" təzələdi

**Müsavat Partiyasının başqanı Arif Hacılı Milli Şuranın 15 martda keçirdiyi mitinq, aksiyada Müsavat üzvlərinin iştirakı, partiyanın yaxın vaxtlarda özünün keçirəcəyi mitinq, parlament seçkilərinə hazırlıqla bağlı "Yeni Müsavat"a açıqlamalar verib.**

**O qeyd edib ki, 15 mart mitinqi öz məqsədinə nail oldu:** "Bu mitinqdə irəli sürülən tələblər haqlı tələblər idi. Mitinq təşkilatçıları mitinq vasitəsilə Azərbaycan ictimaiyyətinin və hakimiyyətin diqqətinə çatdırmaq istədikləri mesajları çatdıra bildilər. Bir neçə gün ərzində Azərbaycan cəmiyyətində bu mitinq əsas müzakirə mövzularından biri oldu. Müsavat Partiyası olaraq biz partiya üzvlərinə bu mitinqində iştirakla bağlı sərbəstlik vermişdik. Ümumiyyətlə, hesab edirəm ki, indiki siyasi şəraitdə Azərbaycanın demokratik qüvvələri kütləvi aksiyaları birlikdə keçirməlidir. Əgər belə aksiyalar birgə təşkil olunsa, onun həm iştirakçılarının sayı, həm təsir imkanları daha çox olar. Lakin AXCP rəhbərliyi təkbaşına kütləvi aksiyalar keçirməyə üstünlük verir. Bu, onların hüququdur".

**Arif Hacılı martın 15-də keçirilən aksiyada şəxsən iştirak etməməsinin səbəbinə isə belə aydınlıq gətirdi:** "Müsavat Partiyasının üzvlərinə bu aksiyada iştirakla bağlı sərbəstlik verilmişdi. Açıq-aydın görünür ki, AXCP rəhbərliyi bizim bu aksiyalarda iştirakımızı arzulamır və biz onların təşkil etdiyi mitinqə gedərək diqqəti özümüzə cəlb etməyi siyasi etikaya uyğun saymadığımız üçün aksiyaya getmədik".

**"Milli Şura aprelin 5-də mitinq keçirəcək. Siz isə hələ 15 mart mitinqindən əvvəl bildirmisiniz ki, Müsavat aprelin ortalarında mitinq keçirəcək. Belə çıxır ki, arada təxminən bir həftə olacaq. Bu mitinqlərin birləşdirilməsi ilə bağlı Milli Şura ilə, AXCP ilə müzakirələr gözləniləndirmi" sualına A.Hacılı belə cavab verdi:** "Martın 16-da Müsavat Divanının toplantısında mitinqlərin keçirilməsi ilə bağlı məsələ ətraflı müzakirə olundu. Artıq partiyada mitinq komitəsi yaradılıb. Aprelin 17-də Bakı şəhəri və ərazisi işğal olunmuş rayonlarda yerləşən Müsavat Partiyası rayon təşkilatları ilə görüşümüz oldu. Bu görüşdə də mitinqlə bağlı məsələləri ətraflı müzakirə etdik. Ümumiyyətlə, belə məsləhətləşmələr yaxın günlərdə davam etdiriləcək. Bu məsləhətləşmələrin nəticəsi olaraq aprelin ortalarında Müsavat Partiyası tərəfindən kütləvi aksiyaların keçirilməsi barədə qərarın qəbul edilməsi istisna deyil. Birgə mitinqlərə gəldikdə isə mən bununla bağlı AXCP rəhbərliyinə və Milli Şuranın sədri Cəmil Həsənliyə müraciət etmişəm. Müraciətim qüvvədə qalır. Ancaq əgər onlar yalnız təkbaşına kütləvi aksiyaların keçirilməsini zəruri sayırlarsa, təbii ki, bu onların hüququdur və bizim onların bu qərarını dəyişdirmək imkanımız yoxdur".



**Arif Hacılı:**
"Cəmil Həsənliyə aksiya ilə bağlı müraciətim qüvvəsində qalır"



**Həsən Kərimov:**
"İndi yenidən niyə Milli Şuraya müraciət edir?"

**Müsavat başqanı onu da bildirdi ki, bugünkü siyasi şəraitdə parlament seçkiləri ilə bağlı ciddi seçki blokunun yaradılması ehtimalı yüksək görünmür. Müsavat aprel ayından tez olmayaraq hər hansı siyasi partiya ilə seçki blokunun yaradılması məsələlərini müzakirə etməyəcək:** "Real müxalifət partiyalarının seçkilərdə blok şəklində iştirakının tərəfdarıyıq. Seçkilərdə Müsavat Partiyası ilə hədəfləri üst-üstə düşən, bizimlə müttəfiqliyə hazır olan siyasi partiyalarla birgə iştirak imkanlarını araşdırırıq. Əgər bu alınmayacaqsa, seçkilərdə təkbaşına iştirak edəcəyik.

Ancaq seçki kampaniyası dövründə siyasi vəziyyətin dəyişməsi mümkündür".

**A.Hacılı Müsavat Partiyasında parlament seçkilərinə hazırlıq işlərinin davam etdiyini dedi:** "Biz seçki dairələrinin təqribən yarısında ilkin olaraq namizədlərimizi müəyyənləşdirmişik. Eyni zamanda seçki kampaniyası dövründə imza toplayacaq, təbliğat kampaniyasında iştirak edəcək, komissiyalarda fəaliyyət göstərəcək şəxslərin siyahıları dairələr və məntəqələr üzrə dəqiqləşdirilir. Bu proses yaxın vaxtlarda başa çatacaq. Hələlik namizədliyə namizədlər müəyyənləşdirilir: Sonda isə namizədlər Müsavat Partiyasının Məclisi tərəfindən müəyyənləşəcək. Müsavat Məclisi namizədlərin irəli sürülməsi ilə bağlı prosedurları özü müəyyənləşdirəcək. Kimlər Məclis üzvlərinin əksəriyyətinin səsini almağa nail olacaqsa, onlar da Müsavat Partiyasının namizədləri olacaqlar".

**"Vaxtilə Arif Hacılı Milli Şurada təmsil olunurdu və Müsavatın Milli Şuradan getməsində müstəsna xidmətləri oldu. İndi yenidən niyə Milli Şuraya müraciət edir?"**

**Bunu APA-ya açıqlamasında Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Ali Məclisinin sədri Həsən Kərimov deyib.**

**H.Kərimov bildirib ki, Müsavat Partiyası rəhbərliyinin Milli Şuranın 15 mart mitinqində iştirakına heç kim mane olmayıb:** "Milli Şuranın bu mitinqi xalqın sosial sifarişi, ümumxalq mitinqi idi. Müsavat rəhbərliyinin qarşısına heç kim sədd çəkməmişdi ki, bu mitinqə qatılmasın. Müsavat Partiyasının mitinqdə iştirakla bağlı AXCP-yə heç bir müraciəti olmayıb. Əgər səmimi olsaydılar, meydana gələrdilər. Kim onları meydandan çıxaracaqdı?"

❑ E.SEYİDAĞA

# Keçmiş siyasi məhbuslar iş axtarır...

## Həbsdən çıxanlar həyatlarını normal qura bilmirlər; birinə iş verilmir, o biri birdəfəlik müavinətin məbləğindən gileylidir...

**Novruz bayramı münasibətilə prezidentin növbəti əfv sərəncamı imzalayacağı gözlənilir. Əsas gözləntilər isə heç şübhəsiz ki, ötən sərəncamlarla azadlığa buraxılmayan siyasi məhbuslarla bağlıdır. Ümid edilir ki, onlar bu dəfə türmədən çıxacaq.**

Amma heç kimə sirr deyil ki, bundan öncəki əfv fərmanı ilə azadlığa buraxılan siyasi məhbuslar hələ də həyatını tam qura, "relsə düşə" bilməyiblər. Onların hazırda hansı işlə məşğul olması, məhbəsdən sonrakı yaşamları, karyeralarını necə davam etdirmələri ilə maraqlandıq.

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı sosial şəbəkədəki son statusunda bu məsələyə nisbətən aydınlıq gətirib. Bildirib ki, bugünlərdə həbsdən azad olunanlara verilən birdəfəlik müavinəti alıb. Onun yazdığına görə, minimum əmək haqqının 4 misli qədər - 420 manat pul veriblər:** "Mən həbsdə olanda mitinqə, nümayişə çıxanlara, ictimai asayişi pozanlara qarşı tətbiq olunan cərimələrin fantastik dərəcədə qaldırıldığını oxudum. Məsələn, 20-30 manat cərimələnən adamları indi 3000-6000 manata qədər cərimələyir və bundan sonra da sözün bütün mənalarında mələdirlər. Deməli, ən azı cərimələri 300 dəfə artırıblar. Əgər cəriməni 300 dəfə artırıbsansa, o zaman şərləyib içəri saldığın və illərlə haqsız yerə saxladığın vətəndaşının çıxandan sonrakı adaptasiyasını da düşünməli və verilən "qanpulu"nu da o ölçüdə artırmalısan. Məsələn, 420 manat yox, ən azı 30.000 manat verməlisən. Cərimələri artırdığın ölçüdə. Elə deyilmi?"

**Ə.Zeynallı daha sonra üzünü hakimiyyətə tutaraq bu sualı verib:** "Dövlət baba, sən məni 3 il 2 ay 2 gün "öldürmüsən". 1158 gün əlimi-qolumu bağlamısan. Məni ən azı 3.000.000 manat ziyana salmısan. İndi 420 manatla işini bitmiş sanırsan. Ədalətdəndirmi?

Belə ədalət olarmı?"

**NİDA üzvü Zaur Qurbanlı isə bildirdi ki, onunla eyni vaxtda türmədən çıxan dostlarının həyatı demək olar ki, eyni problemlərin müşayiəti ilə davam edir:** "Təhsili yarımçıq olanlar onu davam etdirirlər. Və hər birimiz iş axtarırıq. İş də vermirlər. Səbəb siyasi məhbus olmağımızdır. İşəgötürənlər qorxurlar".

**Z.Qurbanlı dedi ki, ictimai fəaliyyətini mövcud situasiyaya uyğun davam etdirir:** "İngilis dili səviyyəmi artırıram ki, master təhsil ala bilim yaxın gələcəkdə. İş axtarıram. Təbii ki, hamısı məsələni biləndə rədd cavabı verir. NİDA çərçivəsində və başqa istiqamətlərdə ictimai fəaliyyətim davam edir".

Keçmiş siyasi məhbus Nigar Yaqublu üçün də eyni vəziyyət keçərlidir. O da hələ işsizdir, həbsdə olan atası Tofiq Yaqublunun türmədə yanına gedib-gəlmək, sovqat aparmaq, sənədləşmə işlərini həll etmək gənc qızın boynuna düşüb. N.Yaqublunun anası da ağır xəstə olduğu üçün onun ev qayğılarını özü həll edir. Bu səbəbdən də o, ev qayğılarını həll etmək üçün işləmək variantını uğurlu hesab etmir.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015

# "Bizə deyilib ki, əfv olacaq"

## Novella Cəfəroğlu: "Bir siyasi məhbusun belə həbsdə qalmasını istəmirəm"

**Novruzda əfv gözlənilir. Siyasi məhbus və dustaq ailələri intizarla əfv fərmanı arzusundadır. İşçi Qrupunun üzvləri də əfv olacağını açıqlayıb. Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, onlara qeyri-rəsmi məlumat daxil olub: "Bizə deyilib ki, əfv olacaq. Bu da İşçi Qrupunun fəaliyyətinin nəticəsidir.**



Novella Cəfəroğlu

Həbsdə olan hamının siyahısı verilib. Bütün xahişləri etmişik. Məktubla prezidentə müraciət etmişik. Ayrı-ayrı insanların ərizələri də var. Güman edirik ki, siyasi məhbuslar ailələrinə qovuşacaq".

**N.Cəfəroğlu ömürlük məhbus olan OMON-çular Səfa Poladov və Arif Kazımovun işindən də danışdı:** "Onların işini ayrıca vermişik. Gözləyirik ki, məhkəməyə çıxarıb ömürlük hökmə xitam verilsin. Onlar cəzasının 20 ilini çəkib. Düzü, bilmirik ki, bayramda baxacaqlar ya yox. Bəlkə bayramdan sonra ola bilər".

**Hüquq müdafiəçisi hesab edir ki, Azərbaycanın adının dünyada siyasi məhbuslarla bağlı hallanmasını arzulamır:** "Avropa Oyunları gəlsə də, gəlməsə də, bir siyasi məhbusun belə həbsdə qalmasını istəmirəm. Azərbaycanın adı Avropa Şurasında, Avropa İttifaqında hallansın. Gürcüstanda 5 nazir həbs olunub. Adı heç yerə çıxarılmayıb. 100 nəfərdən çox Saakaşvilinin adamı var idi. Həmçinin Ermənistanda olsun. Mən istəyirəm Azərbaycan da bu işlərdən azad olsun, sözümüzü rahat deyək. Bizim vəziyyətimiz acınacaqlıdır. İran, Rusiya, Ermənistan var ətrafımızda. Ona görə də siyasilər azadlığa çıxmalıdır. İndi məhkəmələri gedən Leyla Yunus, İntiqam Əliyev, Rəsul Cəfərovun və başqalarının da azadlığa çıxmasını arzulayırıq".

Qeyd edək ki, bəzi tanınmış siyasi məhbusların azadlığa çıxma ehtimalları yoxdur. Buna səbəb onların ya istintaq, ya da məhkəmə dövrünü yaşamalarıdır. İntiqam Əliyev, Leyla və Arif Yunusovlar, Xədicə İsmayıl, Rauf Mirqədirov, Rəsul Cəfərov bu qəbildəndir.

Azadlığa çıxma şansı yüksək olan məhbuslar da az deyil. Bu tipli məhkumlar əsasən prezidentə əfv üçün müraciət edənlərdir. Rəşadət Axundov, Rəşad Həsənov, İlkin Rüstəmzadə, Məmməd Əzizov, Ömər Məmmədov, Əbdül Əbilov, Pərviz Həşimli, Hilal Məmmədov kimi məhbusları qeyd etmək olar.

❑ **E.SALAMOĞLU**

# Vicdan məhbusunun işində adı keçən cazmen danışdı

## Rüfət Ələsgərov: "Rəsul Cəfərovu nə tanıyıram, nə də görmüşəm..."

**Ötən həftə hüquq müdafiəçisi Rəsul Cəfərovun işi ilə bağlı Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti proses keçirildi. Prosesdə dindirilən şahidlər arasında Bakı Caz Mərkəzinin rəhbəri Rüfət Ələsgərov da var idi. Cazmen ifadəsində Rəsul Cəfərovu şəxsən tanımadığını söyləmişdi.**



Rəsul Cəfərov

Onun sözlərinə görə, Rəsul Cəfərov və həmkarları tərəfindən hazırlanan layihə çərçivəsində "Jazz center"də keçirilən tədbirə görə onlara 2500 manat vəsait ödənilib və tərəflər arasında heç bir problem olmayıb, ödəmə də düzgün və problemsiz həyata keçirilib.

Məsələ ilə bağlı qəzetimizə açıqlamasında **Rüfət Ələsgərov** Rəsul Cəfərovu şəxsən tanımadığını, heç vaxt da görmədiyini dedi: "Ümumiyyətlə, onun keçirdiyi tədbir barəsində mənim xəbərim olmayıb. Bizim mərkəzdə caz musiqisi konsertlərindən başqa banketlər və kiçik tədbirlər də keçirilir. Rəsul Cəfərov da o tədbirlərdən birini keçirib, vəssalam. Təkcə konsertlərdən gələn gəlirlə mərkəzin fəaliyyətini davam etdirə bilmərik. Bu səbəbdən vaxtaşırı özəl tədbirlərə də icazə veririk. Mərkəzdə kiçik restoran, kafe fəaliyyət göstərir ki, kim istəyir bu xidmətimizdən də yararlanır. Demək olmaz ki, gündə 50-60 nəfər cazla maraqlanıb mərkəzə gəlir. Yəni adi günlərdə çox az adam bura təşrif buyurur".

**Rüfət Ələsgərov mərkəzin fəaliyyəti barəsində də danışdı:** "2002-ci ildən fəaliyyət göstəririk. Bazar ertəsindən başqa həftənin bütün günləri qapımız musiqiçilərin üzünə açıqdır. Burada həm yerli, həm də xaricdən gələn musiqiçilərin konsertləri təşkil edilir. Dünya şöhrətli caz musiqiçiləri bizim mərkəzə tez-tez müraciət edirlər, ölkəmizdə caz musiqisinə maraq xeyli artıb".

**Cazmen ölkəmizdə keçirilən möhtəşəm caz konsertlərindən söz açdı:** "Bildiyiniz kimi ölkəmizdə artıq caz festivalları keçirilir. Bunun nəticəsində məşhur cazmenlər bizim mərkəzə toplaşır, öz möhtəşəm caz proqramları ilə caz sevənlərin qarşısında çıxış edirlər. Bəzən konsertlər gözlənilməz baş tutur. Məsələn, bizə müraciətlər olunur, yaxud hansısa konserti planlaşdırırıq və həyata keçiririk. Gürcüstan, Rusiyadan bizə tez-tez müraciətlər olunur. Yerli caz ifaçılarımız da onlara qoşulur. Bu çox yaxşı haldır. Ona görə ki, hər caz ifaçısının özünəməxsus üslubu var və gənc cazmenlər hər ifaçıdan nəsə öyrənməyə çalışır. Əvvəllər belə bir mərkəz olmadığından cazmenlərimiz fərdi olaraq məşğul olurdularsa, bu mərkəzin sayəsində öz fəaliyyətlərini ortaya qoyub müqayisə edə bilirlər. Bu amil caz musiqimizin inkişafında mühüm rol oynayır. Bizim Bakı Caz Mərkəzi çox gənclərə yol açıb. Bura demək olar ki, daha çox gənclər gəlir.

Təbii ki, əgər imkanımız olsaydı burda siniflər açıb təhsil də verərdik. Lakin hazırkı durum buna imkan vermir. Dövlət tərəfindən də heç bir dəstək almırıq. Hər şey mərkəzin öz maddi büdcəsi sayəsində həyata keçirilir".

Xatırladaq ki, Rəsul Cəfərov ötən il avqustun 2-də həbs olunub. Ona qarşı vergidən yayınma, qanunsuz sahibkarlıq, mənimsəmə kimi ittihamlar irəli sürülüb. Lakin yerli və beynəlxalq ictimaiyyət hesab edir ki, bu ittihamlar saxtadır, onun həbsi hüquq müdafiəçisi kimi göstərdiyi fəaliyyət, xüsusən Azərbaycandakı siyasi məhbusların siyahısının hazırlanmasında iştirakı ilə bağlıdır. Təsadüfi deyil ki, "Amnesty International" beynəlxalq hüquq-müdafiə təşkilatı Rəsul Cəfərovu "vicdan məhbusu" elan edib.

❑ **Xalidə GƏRAY**

# Hamının sevinməsi üçün...



**Hüseynbala SƏLİMOV**

**Məhbusların həyatı nə qədər yüngülləşdirilsə də, onların saxlanma şəraiti nə qədər beynəlxalq norma və standartlara uyğunlaşdırılsa da, bu dünyada həyat var, ölüm var və bir də onların arasında olan məhbəs həyatı var.**

Elə bu səbəbdən də yaxşı insanlar məhbuslardan heç vaxt dualarını əsirgəmirlər - bu həyatı seçənlərin islah olunmasını, ora təsadüfən və ya zorən düşənlərin isə azad olunmasını arzu edirlər...

Adətən böyük bayramlar ərəfəsində əfv fərmanları imzalanır. İndi də ölkə növbəti böyük bayram ərəfəsindədir...

Ona görə insanlar yenə də ümidlidir. Ümidlər də ən çox siyasi məhbus statusu almış və yaxud da bu cür səciyyələndirilən insanlarla bağlıdır...

Onların dəqiq sayını demək çətindir. Bu, müəyyən mənada hüquq müdafiəçiləri arasındakı konsensusdan asılıdır. Amma demək olar ki, hazırda təxminən 25 adam siyasi məhbus həyatını yaşayır...

Bütün problemlərin öz tarixçəsi var. Bu problem də təxminən 1993-cü ildən başlayıb. Amma onun leqallaşması daha çox Azərbaycan Avropa Şurasına üzv olandan sonrakı dövrə təsadüf edir.

Azərbaycanda bilavasitə siyasi maddələrlə, siyasi və ictimai fəaliyyətinə görə ittiham olunanlar yoxdur. Siyasi və ictimai fəallar adətən qeyri-siyasi maddələrlə məsuliyyətə cəlb olunurlar.

Bununla hakimiyyət belə bir görüntü yaratmaq istəyir ki, guya ölkədə azad demokratiya və siyasi plüralizm şəraiti hökm sürür, insanlar siyasi baxışlarına görə təqib olunmurlar. Amma reallıq tamam başqadır.

Bəlkə də bu reallığın ən bariz ifadəsi budur ki, beynəlxalq təşkilatlar lap əvvəldən belə "arqument"ləri qəbul etmir, siyasi təqiblərə son qoyulmasını və siyasi məhbusların azad olunmasını tələb edirlər...

Bu tələblər gec-tez yerinə yetirilir. Amma bu, çox özünəməxsus bir formada edilir: hakimiyyət ayrı-ayrı fərdləri onlar əfv haqqında müraciət etməyənə qədər azad etmir...

Bununla guya ki, öz "arqument"lərinin doğruluğunu sübut etmək istəyirlər. Fəqət, belə "arqument"lər faktiki olaraq onların özlərindən başqa bir kimsəyə lazım deyil - beynəlxalq təşkilatlar israrla kiminsə azad olunmasını tələb edirlərsə, bu, o deməkdir ki, onlar həmin adamın siyasi baxışlarına görə təqib olunduğunu qəbul edir və onun azad olunmasını tələb edirlər...

Yerli vətəndaşlar da əsl reallığı bilir, hakimiyyətin bu və ya başqa adamı niyə təqib etməsinin əsl səbəblərini çox gözəl anlayırlar.

Onda sual olunur: bu maskarad kimə və nəyə lazımdır? Təbii ki, hakimiyyətdən başqa heç kimə lazım deyil. Onlara da ona görə lazımdır ki, bu üsullarla insanları qorxuda bilsinlər, onları mübarizədən çəkindirsinlər...

Hakimiyyət "ürəyi istəyən qədər" repressiya apara bilmir. Məmurların içində elələri var ki, öz təfəkkür tərzinə görə 30-cu illərin məmurlarından bir o qədər də fərqlənmirlər. Belələri çox istərdi ki, cəmiyyətdə arzuladıqları kimi "təmizləmə" işi aparsınlar...

Fəqət, bacarmırlar, çünki onların istəyinin qarşısını alan beynəlxalq ictimaiyyət, təşkilatlar var - o ictimaiyyət ki, bəzən haqsız olaraq yerli siyasi və ictimai fəallar tərəfindən də qınağa məruz qalır.

Amma həmin beynəlxalq təşkilatlar şəbəkəsi və onların nəzarəti olmasaydı hər şey daha ağır ola bilərdi.

Təsadüfi deyil ki, məhz bu dövr ərzində - Azərbaycan Avropa Şurasına üzv olandan yüzlərlə insan siyasi məhbus kimi azad edilib. Bunu kimin "aktiv"inə yazaq?

Sözsüz ki, yerli hüquq müdafiəçilərinin, ictimai-siyasi fəalların da əməyini unutmaq olmaz. Ən azı ona görə ki, təqiblər və həbslərlə bağlı məlumatları da məhz onlar beynəlxalq təşkilatların diqqətinə çatdırır və bu məlumatları bir növ aktuallaşdırırlar...

Düzdür, əvvəllər ümidlər daha böyük idi. Hamı güman edirdi ki, bu cür monitorinqlərlə ölkədə siyasi məhbus problemi tamamilə tükəndiriləcək. Gəl, belə olmadı. Hər dəfə yalnız müəyyən dövrün siyasi məhbuslarını, bəzi hallarda isə onların bir qismini azad etmək mümkün oldu...

Amma problem özü qaldı və indi də qalmaqda davam edir. Bunun üçün mövcud siyasi məhbusların azad olunması zəruridir, amma kafi deyil. Ölkədə ciddi siyasi islahatlar aparılmalıdır, demokratik institutlar yaranmalıdır...

Elə insanların təqib və həbs olunmasının da səbəbi budur ki, onlar məhz belə islahatlar tələb edirlər. Tələb etməsəydilər, bunun üçün mübarizə aparmasaydılar onlar da hər şeylə barışmış böyük əksəriyyət kimi bayramda öz yaxınlarının yanında olardılar...



# Nömrələri yadda saxlayan

Zamin HACI
zaminhaci@gmail.com

**İnternetdə bir video gördüm, cənub rayonlarımızdan hansındasa, deyəsən, Cəlilabad idi, bir nəfər fağır adamı çəkmişdilər, deyərdin yazıq elə rayonun adını daşıdığı Mirzə Cəlilin əsərlərindən "pırt" eləyib ortaya çıxıbdır; bu adamın guya qeyri-adi istedadı varmış: gördüyü bütün maşın nömrələrini yadda saxlayırmış. Maraqlıdır ki, adamın bu fövqəladə qabiliyyəti videoda nümayiş etdirilmədi, əvəzində böyür-başına yığışanlar "bəli, elədir, hətta on il qabaq kiminsə satdığı maşının nömrəsi də yadında qalıb" deyə tərif vurdular.**

Bunun əsas səbəbi o idi ki, həmin adam ümumiyyətlə çətinliklə danışırdı! Hiss olunurdu nitqində, bir az da psixologiyasında kütləvi olmayan cəhətlər var *(mən anormallıq yazmıram, çünki hələ bilmək olmaz kim normaldır)*. Bəzi psixiatrik pozuntularda, misal üçün, autizm, savantizm kimi - xəstələrin unikal yaddaş xüsusiyyətləri ortaya çıxır. Üçrəqəmli ədədləri yaddaşda bir-birinə vurmaq *(şahmat üzrə dünya çempionu Mixail Talda bu qabiliyyət varmış)*, çoxlu gərəkli-gərəksiz informasiyanı yadda saxlamaq kimi. Bunun kinoda örnəyini yəqin hamınız görmüsünüz, baş rolda Dastin Hoffman və Tom Kruzun çəkildiyi "Yağış adam" filmi məhz savantizm sindromundan əziyyət çəkən insanın həyatından bəhs edir.

Bizim videodakı adam isə orta statistik həmvətənimizin, Azərbaycan toplumunun özündən fərqlənən şəxsə uzunmüddətli pis münasibətini əks etdirirdi. Nimdaş geyim, rabitəsiz bir-iki cümlə, kasıbçılıq yağan sima... Çayxana və küçələrdə uzun illər qara kütlənin düşük, sinik, bəzən amansız və qansız nifrətinin, bəzən məzələnməsinin obyekti olmaq - belə insanları həyatda bu tale gözləyir.

Ancaq adamın maşın nömrələrini yadda saxlamaq kimi mənasız qabiliyyəti düşüncəmi tamam ayrı yönə apardı. Birdən yadıma düşdü ki, bizdə belə adamlar əslində çoxdur, sadəcə, çox zaman diqqət eləmirik. Örnək üçün, elə adam var telefon nömrələrini yadda saxlayır, eləsi var gəlib-keçmiş bütün "vorzakonları" tanıyır. Müəllimlər var, hansı şagirdin anasının şuba geyindiyini gecə yuxudan durğuzsan əzbər deyər. Həkimlər var, elmi jurnallardan çox restoran menyularını oxuyub yadda saxlayır. Jurnalistlər tanıyıram, yazısına söz axtarmaq yerinə rayon icra hakiminə girmək üçün deşik axtarır və belə yolları hamıdan yaxşı bilir. Siz də azacıq düşünsəniz ətrafınızda nə qədər belə faydasız "hard-disk" yiyəsi olanlar görərsiniz.

Millət maşın nömrələrini yox, ona gəlinən "nömrələri" yadda saxlamalıdır. Saxlayırıqmı? Yox. Hökuməti guya söyən tarixçi alim elə həmin hökuməti öyən yazıçı dostuna tərif vurursa, xiyar niyə əyri bitməsin? Başımızı o qədər zir-zibillə doldururuq, axırda faydalı bilgilərə yer qalmır.

Bu yaxında facebook sosial şəbəkəsindəki dostlarımdan Savalan Qorqudun bir qeydini gördüm, öz-özümə şoka düşdüm. Çünki bunu unutmuşdum. Savalan bəy yazmışdı ki, Azərbaycanda daşnak-bolşevik cəlladı, əli 31 mart qırğınlarında qanımıza bulaşan Stepan Şaumyanın adına sovet dövründə 2 rayon qoymuşduq. Biri Bakıda, biri kənd yerində. Yaltaqlığın, unutqanlığın, millətə tüpürməyin dərəcəsinə baxın. Heç olmazsa bunun adını bir yerə qoy. Ancaq bu da hamısı deyildi, sonra başqa dostumuz yadımıza saldı ki, Şaumyanın adına Azərbaycanda 2 yox, 3 iri yaşayış məntəqəsi vardı - biri də Stepanakert idi! Üstəlik Bakı daxil olmaqla digər şəhər və rayonlarda Şaumyanın adına küçələr, prospektlər olub, zavod və fabriklər olub. Nömrə budur ey! Oğul deyərəm bunu yadda saxlayasan! Bəlkə SSRİ bir az da qalsa bütün Azərbaycanı Şaumyan Sovet Sosialist Respublikası adlandırardılar, xəbərimiz olmazdı. Biz bu vaxt maşın nömrələrini yadda saxlayardıq.

**Bu yazını yadda saxlayın.**

# Postsovet ölkələrinin suverenliyinə yeni təhlükə



# ABŞ kəşfiyyatından Bakı və digər paytaxtlara çevriliş xəbərdarlığı

Amerika məxfi servis analitikləri hesab edir ki, Rusiya Krımda uğurla sınaqdan çıxardığı "məxməri işğal" ssenarisinin oxşar variantını "sözə baxmayan" digər həmsərhəd ölkələrə də tətbiq edə bilər; əsas hədəf GUAM üzvləri olan Ukrayna, Gürcüstan, Moldova və Azərbaycandır...

**ABŞ Milli Kəşfiyyatı direktoru Ceyms R. Klepperin rəsmi saytında Birləşmiş Ştatlar təhlükəsizliyinə qlobal təhlükələr haqda hesabat dərc olunub. Kəşfiyyat birliyi tərəfindən hazırlanan sənəddə ayrıca bir fəsil Rusiyaya həsr olunub. Fəsildə söhbət Rusiyanın həm iqtisadi durumundan, həm də onun Qərb ölkələri ilə qarşılıqlı münasibətləri və hərbi doktrinasından gedir. Analitiklərin qənaətincə, Moskva dünyada hərbi təsirlərini artırmaqda davam edəcək.**

"Ukrayna böhranı Rusiyanın Qərblə münasibətlərinə olduqca dərin təsirini göstərib və mütləq Rusiyanın daxili siyasəti, iqtisadi inkişafı və xarici siyasəti üçün uzunmüddətli nəticələr doğuracaq", - deyə sənəddə qeyd edilir və ardınca Putinin öz hakimiyyəti dövründə ölkədə ən yüksək reytinqə malik olmasının səbəbinə toxunulur: "İntensiv dövlət təbliğatı rusiyalılarda belə rəy yaradıb ki, Krımı işğal eləməklə Putin tarixi ədalətsizliyi bərpa edib və superdövlət kimi Rusiyanın maraqlarını düşmən Qərblə qarşıdurmada yaxşı qoruyub".

Analitiklərə görə, Rusiya regional inteqrasiyanı gücləndirib qonşu ölkələri Belarus və Qazaxıstan kimi Avrasiya İqtisadi Birliyinə qoşmağa çalışır. Sənəddə deyilir ki, Rusiya həmsərhəd Ukraynada hərbi və könüllü birləşmələrdən gizli şəkildə istifadəni nümayiş etdirməklə həmsərhəd digər ölkələrdə də ciddi narahatlıq yaradıb.

"Gələcəkdə Rusiya silahlı qüvvələrinin yerləşdirilməsi ehtimal ki, Rusiyanın Avropa diplomatiyası və ictimai rəyinə təsirini maksimum dərəcədə gücləndirməyə yönələcək. Rusiya hərbçiləri artıq yerləşdikləri yerlərdən uzaqlarda dəniz və hava əməliyyatlarını genişləndirmək planlarının anonsunu veriblər" - xəbərdarlıq edir hesabat müəllifləri.

Fəslin yekun hissəsində deyilir ki, Moskva nüvə və adi silahların modernləşdirilməsində, hazırlıq işləri və peşəkar verdişlər məsələsində böyük tərəqqiyə nail olub, həmçinin öz hərbi doktrinasını bu doktrinaya müharibə aparmağın yeni-yeni metodlarını daxil eləməklə, uzaq və dəqiq zərbələr endirmək qabiliyyətini inkişaf etdirməklə modernləşdirib. **"İqtisadi çətinliklərə baxmayaraq Moskva öz silahlı qüvvələrini modernləşdirməkdə davam edəcək"**, - deyə məxfi servis analitikləri öz fikirlərini tamamlayıblar.

***

Amerikalı gizli servis təhlilçilərinin hazırladığı hesabat yaxın perspektiv üçün Rusiyanın nəinki Avropa, ən əvvəl həmsərhəd postsovet ölkələri üçün nə dərəcədə ciddi təhlükə və təhdid mənbəyi olduğunu bir daha təsdiqləyir. Öncəliklə Rusiyanın siyasi-hərbi təsir zonasına daxil olmaqdan israrla imtina edən Azərbaycan, Gürcüstan, Moldova *(Ukraynadan sonra yerdə qalan GUAM üzvləri)* kimi müstəqil dövlətlərə Rusiyanın real təhlükə yaratdığı qənaəti möhkəmlənir.

Vacib deyil ki, bu ölkələrin "ram edilməsi" Ukrayna (Krım) variantı üzrə getsin. Müdaxilənin üsulu, forması fərqli, daha təkmil ola bilər. O sırada "məxməri çevriliş" variantının Putinin qovluğunda yer alacağı istisna deyil. Ən qorxulusu odur ki, hesabatda da vurğulandığı kimi, SSRİ-nin bərpasına yönəlik bu müdaxilələri, çevrilişləri Rusiya cəmiyyəti "tarixi ədalətin bərpası" kimi qəbul edə bilər. Krımın Ukraynadan zorla qoparılması ssenarisinin postsovet ölkələrinə vəd elədiyi ən böyük təhlükə bundan ibarətdir.

Kremlin "yerli şəraitə uyğunlaşdırılmış" oxşar ssenarisinin digər həmsərhəd ölkələrə tətbiqi bu baxımdan gözardı edilə bilməz. Nəzərə alanda ki, Rusiyanın başında KQB keçmişinə və baqajına malik birisi dayanıb, o zaman nikbinliyə, uzaq Qərbin vaxtında köməyə gələcəyinə inam üçün yer qalmır. Qərb heç Ukraynanın içində ola-ola rus işğalını önləyə bilmir. Hələ harasıdır ki, ara-sıra Moskvadan qeyri-rəsmi hədələr səslənir ki, əgər ABŞ Ukraynaya ölümcül silahlar versə, o zaman Rusiya Kiyevin tutacaq.

Konkret olaraq Azərbaycandan söhbət gedirsə, Xəzərdə Rusiya hərbi gəmilərinin qısa müddətdə Bakı buxtasında peyda olması problemli görünmür. Necə ki, 2013-cü ildə Putinin Bakı səfəri zamanı şimal qonşumuzun hərbi rəhbərliyi bunu praktikada göstərmişdi də.

***

Xatırladaq ki, 1991-1992-ci illərdə Qara dənizdəki Rusiya donanmasının rəhbərlik eləmiş İqor Kasatonov ötən həftə verdiyi müsahibədə Krımı Rusiyanın necə ilhaq elədiyinin detallarını açıqlayıb. O, yarımadanın işğalında, oradakı Ukrayna hərbi bazalarının blok edilməsində, digər strateji dövlət obyektlərinin qısa zamanda ələ keçirilməsində, hətta referendumun reallaşmasında həlledici rol oynamış "yaşıl adamlar"dan *("nəzakətli adamlar"dan)* danışarkən bildirib ki, onlar əslində Rusiyanın hərbi kəşfiyyat (desant) dəstələrinin üzvləri olub.

Admiralın sözlərinə görə, "yaşıl adamlar" Qara dənizdəki Rusiya bazasından hətta ABŞ kəşfiyyatının belə xəbəri olmadan Krıma gizlicə etap edilib və dərhal zəruri nöqtələrdə qərar tutublar. **"Halbuki, çoxları onları guya yerli özünümüdafiə dəstələri hesab edirdi"** - deyib admiral. **"Uğurun əsas səbəblərindən biri qrupların toplaşması zamanı radiosəssizliyə riayət edilməsi, eləcə də Sevastopol bazası, Krıma hərbçilərin çatdırılması üçün hərbi nəqliyyat vasitələrindən düzgün istifadəsi idi"** - bildirib admiral...

***

Heç şübhə yox ki, Rusiya Ukraynada sıxışdırıldıqca, yığılmış yay effektinə uyğun şəkildə postsovet məkanının başqa nahiyələrində Qərbdən revanş götürməyə çalışacaq. Həmin məkanlardan biri və birincisi şübhə yox ki, Güney Qafqazdır, Azərbaycanla Gürcüstandır. ABŞ kəşfiyyatının hesabatı da daha çox Bakı və Tiflisə Moskva sarıdan ifrat ehtiyatlı olmaq çağırışıdır, çevriliş xəbərdarlığıdır.

❑ **Siyasət şöbəsi**

Yeni MÜSAVAT
N 60 (6088) 18 mart 2015




# Qarsda türk tarixinin ən böyük layihəsinin təməli qoyuldu

## TANAP-ın Türkiyə ərazisindən keçən hissəsinin tikintisinə başlanıldı; İlham Əliyev iki ölkəni istəməyən qüvvələrə mesaj göndərdi; Ərdoğan "Azərbaycan-Türkiyə" şeirini dedi

**Martın 17-də Qarsda Trans-Anadolu Təbii Qaz Boru Xətti Layihəsinin (TANAP) Türkiyə ərazisindən keçən hissəsinin tikintisinə başlanılıb. Mərasimində Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Georgi Marqvelaşvili iştirak edib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəl Azərbaycan prezidenti ilə görüşüb. Prezidentlərin görüşü mətbuat üçün qapalı olub.**

Bundan sonra onlar Heydər Əliyev adına Anadolu Peşə və Anadolu Texniki Liseyinin açılış mərasimində iştirak ediblər.

Azərbaycanın dövlət başçısı çıxışında qədim türk torpağı olan Qarsda olmağımdan məmnunluğunu ifadə edib. "Qars qədim türk dünyasının tarixi yeridir və belə məktəbin məhz Qarsda açılması böyük məna daşıyır".

Prezident bildirib ki, 3 il əvvəl İstanbulda TANAP layihəsi ilə bağlı sənəd imzalanıb: "Biz bu gün artıq bu layihənin təməli qoyuruq. Enerji sahəsində Türkiyə-Azərbaycan-Gürcüstan birliyi artıq tam yeni mənzərə ortaya qoyur. Bizim həyata keçirdiyimiz birgə enerji layihələri xalqlarımız üçün yeni imkanlar, iş yerləri yaradır, siyasi və iqtisadi gücümüzü artırır".

### İlham Əliyev: "Azərbaycan və Türkiyəyə qarşı çirkin kampaniya aparılır"

Prezident deyib ki, Azərbaycan və Türkiyəyə qarşı çirkin kampaniya aparılır: "Keçmişimizi qaralamaq, şər, böhtan atmaq, bugünkü uğurlu inkişafımızı inkar etmək üçün bəzi xarici dairələr durmadan bizə qarşı kampaniya aparırlar. Biz isə öz işimizlə buna cavab veririk. Bu gün Türkiyə və Azərbaycan kimi dünyada inkişaf edən ölkələr tapmaq çox çətindir. Böhranlara baxmayaraq, Azərbaycan və Türkiyə bu gün inkişaf edir. Bizim inkişafımız siyasi iradə, tarixi həqiqət üzərində qurulub. Biz gələcəyimizi tarixi həqiqət üzərində qururuq. Tarixi olduğu kimi gənc nəsillərə təqdim edirik. Bəzi başqa ölkələr kimi tarixi təhrif etmir, gələcəyimizi yalan-böhtan üzərində qurmuruq. Bu gün Türkiyə və Azərbaycana qarşı əsassız iddialar irəli sürən Ermənistan dövləti yalan üzərində qurulub. Onların tarixi yalan, bizə qarşı irəli sürdükləri iddialar əsassızdır".

Türkiyə prezidenti də mərasimdə geniş nitqlə çıxış edib. "TANAP Türkiyə-Azərbaycan-Gürcüstanla yanaşı bütün ölkələrə xeyirli olmasını arzu edirəm. Novruz bayramınızı təbrik edirəm. İlaxır çərşənbənizi təbrik edirəm. Bu bayram Azərbaycanda çoşğulu günü olaraq qeyd edilir. Bu gecə vəsiləsilə oxunan duaları, xeyirli işlərin qəbul edilməsini arzu edirəm. Azərbaycan başda olmaqla Orta Asiyadan balkanlara qədər bu 5 minlik bayramın birliyimizə vəsilə olmasını arzu edirəm. Novruzun bütün dünyada barış və hüzurun xəbərçisi olmasını diləyirəm" deyə, Ərdoğan söyləyib.

### Ərdoğan: "İzmir, İstanbul, Ankara, Antalya bizim üçün nədirsə, Bakı da odur"

Daha sonra Ərdoğan Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin "Azərbaycan - Türkiyə" şeirini səsləndirib və alqışlarla qarşılanıb.

Ərdoğan 1918-ci ildə Bakının işğaldan azad olunmasında Qafqaz İslam Ordusunun rolunu xatırladıb: "Bakı, Dərbənd və Dağıstanın düşmən işğalından azad olunmasında türklər azərbaycanlılarla yan-yana vuruşub. Qarabağda zülmə məruz qalan qardaşlarımızın acısını Anadoludakı vətəndaşlarımız hər zaman ürəyində hiss edib. Qars, İğdır, Ərzurumdakı vətəndaşımızla Naxçıvandakı qardaşımız arasında fərq qoymuruq. İzmir, İstanbul, Ankara, Antalya bizim üçün nədirsə, Bakı da odur. Bizim heç kəsə qarşı düşmənçiliyimiz yoxdur, amma qardaşımızın haqqını müdafiə etmək, tökülən qanın hesabını sormaq boynumuzun borcudur. Həmişə qardaşlarımızın yanında olduq və olmaqda davam edəcəyik".



**Türkiyə prezidenti: "Bizim heç kəsə qarşı düşmənçiliyimiz yoxdur, amma qardaşımızın haqqını müdafiə etmək, tökülən qanın hesabını sormaq boynumuzun borcudur"**

### Avropa Komissiyasının vitse-preziidenti Maroş Şevçovic TANAP-ın təməlqoyma mərasimində

Daha sonra TANAP-ın təməlqoyma mərasimi keçirilib.

Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan dövlət başçıları ilə yanaşı, Avropa Komissiyasının vitse-prezidenti də iştirak edib.

Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ilə yanaşı Avropa Komissiyasının vitse-preziidenti Maroş Şevçovic, Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslər iştirak edib. Düymə hər üç ölkə prezidenti tərəfindən basılıb.

TANAP layihəsinin təməlatma mərasimində isə Ərdoğan deyib ki, Azərbaycan Türkiyə üçün adi dövlətlərdən biri deyil. "Biz eyni dildə danışan, ortaq tarixi keçmişi paylaşan, sözdə deyil, əsl qardaş olan, bir millət, iki dövlətik". Ərdoğan TANAP layihəsinin Türkiyə, Azərbaycan, Gürcüstan və avropalı tərəfdaşlar üçün xeyirli olmasını diləyib: "TANAP layihəsinin təməlini atırıq və təbii qazı Türkiyə üzərindən Avropaya göndəririk".

Prezident İlham Əliyev isə deyib ki, Türkiyədə özünü Vətəndəki kimi hiss edir: "Bu layihə enerji təhlükəsizliyi, ilk növbə isə Türkiyə-Azərbaycan qardaşlığı layihəsidir. Bu tarixi uğurlar əsasında gələcəyimizi qururuq. TANAP layihəsinin tarixi qısa, ancaq çox şərəflidir. 2011-ci ildə Türkiyə prezidenti Ərdoğanla TANAP layihəsi ilə bağlı müqaviləni imzaladıq, keçən il sentyabrın 20-də Bakıda Cənub Qaz Dəhlizinin təməlini qoyduq. İnanıram ki, bu layihəni vaxtlı-vaxtında icra edəcəyik. Bu layihəyə ən azı 45 milyard dollar vəsait qoyulacaq. Azərbaycanın təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetr, gözlənilən ehtiyatlar bundan 2 dəfə çoxdur. Əminəm ki, Azərbaycan qazı böyük həcmdə qonşu ölkələrə nəql ediləcək".

Dövlət başçısı bildirib ki, bu gün Avrasiyada yeni əməkdaşlıq formatı yaranır: "Biz Türkiyə-Azərbaycan-Gürcüstan enerji, nəqliyyat, siyasi, iqtisadi formatı yaratdıq. Bu gün bu formatı genişləndiririk. Bu gün bu işə Yunanıstan, Bolqarıstan, Balkan ölkələri qoşulur. Balkan ölkələri gələcəkdə bizim qazımızı alacaqlar, Rumıniya və Macarıstan da bu layihələrə qoşula bilərlər. Çünki resurslar və Cənub Qaz dəhlizinin ötürmə qabiliyyəti böyükdür. Çalışmalıyıq ki, maksimum öz qazımızla qonşu, dost ölkələri təmin edək. Bu layihələrdə iştirak edən ölkələr təbii müttəfiqlərə çevrilirlər. Bu ölkələrin tarixi, mədəniyyəti fərqidir. Ona görə də Cənub Qaz Dəhlizi tək iqtisadi deyil, həm də ciddi siyasi təşəbbüsdür, iqtisadi mənfəət gətirən layihədir".

Dövlət başçısı Cənub Qaz Dəhlizinin şaxələndirmə layihəsi olduğunu vurğulayıb: "Hazırda Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycan, "Şahdəniz" qaz yatağıdır. Mənbələrin, yolların şaxələndirilməsi də çox önəmlidir. Yeni mənbələrin mövcudluğu vacibdir. Dünyada və Avropada qaza tələb artacaq. Ənənəvi mənbələr tükənir, əminəm ki, gələcəkdə də bütün işləri lazımi səviyyədə aparacağıq. Əsas məsələ odur ki, aramızda qarşılıqlı anlaşma, hörmət var. Bu gün, Novruz bayramında axır çərşənbədə TANAP-ın təməlinin qoyulması önəmlidir. Biz gələcəyimizi milli ənənələr üzərində qururuq. Müxtəlif ölkələrdən gələn dostlar qonaqlarımızdır. İnşallah, 3 ildən sonra TANAP-ın açılışında birlikdə olacağıq".

Gürcüstan prezidenti Georgi Marqvelaşvili təməlqoyma mərasimində çıxışında deyib ki, Gürcüstan bir tranzit ölkə olaraq bu layihədə məsuliyyətini anlayır və üzərinə düşən vəzifəni sonuna qədər həyata keçirəcək.

TANAP layihəsi çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanılması planlaşdırılır. Başlanğıcda illik 16 mlrd. kubmetr təşkil edəcək nəql həcminin mərhələli surətdə əvvəlcə 24 mlrd. kubmetrə, sonra 31 mlrd. kubmetrə yüksəldilməsi nəzərdə tutulur.

1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq. Boru xətti Türkiyə-Gürcüstan sərhədində yerləşən Ərdəhan vilayətindəki Posof mahalının Türkgözü kəndindən başlayaraq Ərdəhan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşhane, Giresun, Sivas, Yozqat, Kırşehir, Kırıkkale, Ankara, Eskişehir, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Tekirdağ və Ədirnə olmaq üzrə 20 vilayət, 67 mahal və 600 kənddən keçərək Yunanıstan sərhədində Ədirnənin İpsala mahalında yekunlaşacaq və bu nöqtədən etibarən TAP ilə bağlanacaq. TANAP $10-11 mlrd. dəyərində qiymətləndirilir.

TANAP layihəsi çərçivəsində SOCAR, bp və Türkiyənin "Botaş" şirkəti arasında müqavilə imzalanıb. TANAP layihəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 80 faiz, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20 faiz paya malikdir.



**İlham Əliyev: "Bugünkü uğurlu inkişafımızı inkar etmək üçün bəzi xarici dairələr durmadan bizə qarşı kampaniya aparırlar"**

Məlumata görə, TANAP layihəsində istifadə olunacaq təxminən 1,2 mln. ton polad boruların üçdə bir hissəsinin tədarükünə dair tenderi "Borusan Mannesmann", "Noksel Çelik" və "Erciyas Çelik" konsorsiumu qazanıb. Polad boruların tədarükünün 24 ayda yekunlaşdırılması gözlənilir.

❑ Xəbər xidməti

## Müsavat TANAP-ı yüksək qiymətləndirdi

**Martın 17-də Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyan Trans Anadolu Qaz Boru Kəmərinin (TANAP) təməlqoyma mərasimi oldu. Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev şəxsən iştirak edib. TANAP həm də siyasi layihə olması səbəbindən də xüsusilə qiymətli hesab olunur. Azərbaycana daha çox indi dövlətlər investisiya qoyurlarsa, bu, bir daha Azərbaycanın müstəqilliyinin qorunub-saxlanılması, daimi olması üçün də əlavə şərait yaradır. Bu mənada TANAP layihəsi Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir.**

Bəzi siyasətçilər isə hesab edir ki, neft amili, Bakı-Tiflis-Ceyhan xətti Azərbaycanda YAP-ın uzun müddətli hakimiyyətini təmin etmiş oldu, demokratiya arxa plana keçdi. İndi də TANAP layihəsinin özülü qoyulur. Bu cür düşünən siyasətçilər bundan sonra da qaz amilinin mövcud iqtidarın uzun illər ayaqda qalmasına, Azərbaycanda demokratiya məsələsinin dünya üçün arxa plana keçməsinə səbəb olacaq.

Bəs, ölkənin aparıcı müxalifət partiyası sayılan Müsavat bu barədə mövqeyi necədir? Müxalifət TANAP-ın özülünün qoyulmasını necə dəyərləndirir?

Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, Azərbaycanın enerji resurslarının Türkiyə üzərindən Avropaya verilməsi ilə əlaqədar bütün layihələr Azərbaycanın mənafelərinə uyğundur. Belə layihələr Azərbaycanın iqtisadi gücünü artırmaqla yanaşı, həm də demokratik dünyanın Rusiyadan asılılığını azaldır. O baxımdan bu layihələrin həm də bütövlükdə demokratik dünyanın inkişafı üçün, demokratik dəyərlərin daha geniş yayılması üçün yalnız müsbət nəticəsi ola bilər: "Hesab edirəm ki, neft müqavilələrinin və digər bu tipli layihələrin guya Azərbaycanda demokratik cəmiyyətin formalaşmasına mane olduğu barədə fikirlər kifayət qədər şişirdilib. Məncə problemlərin səbəblərini neft amilində axtarmaq yanlışdır".

❑ Etibar SEYİDAĞA

# Sərdar Cəlaloğlu AXCP-nin ittihamlarına cavab verdi

## “"Hürriyyət" qəzetinin onların mitinqinə geniş yer ayırması onu göstərdi ki, AXCP-dən irəli sürülən bu cür ittihamların heç bir əsası yoxdur"




**Milli Şuranın 15 martda bahalaşmaya qarşı keçirilən mitinqinə bu aksiyada iştirak etməyən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun təsisçisi olduğu “Hürriyyət” qəzetinin AXCP-yə bağlı “Azadlıq” qəzeti qədər geniş yer ayırması maraqla qarşılanıb. “Hürriyyət”in mitinqi bu qədər geniş işıqlandırmasının Sərdar Cəlaloğlunun göstərişi ilə olub-olmadığını araşdırdıq.**

**Sərdar Cəlaloğlu** bildirdi ki, “Hürriyyət” qəzetinin ümumiyyətlə işinə qarışmır. Bunu əvvəllərdə də, indi də orada işləyən jurnalistlər bilirlər: “Təsisçi olmağım o demək deyil ki, qəzetin redaktoruyam. Yəqin ki, qəzetin redaktoru 15 mart mitinqinin gündəmin hadisəsi olduğunu nəzərə alaraq həmin mitinqdən geniş yazı, material dərc edib. Qəzetin günün hadisəsini səhifələrində geniş işıqlandırması normal haldır, burada qeyri-adi nə isə yoxdur”.

**S.Cəlaloğlu onu da dedi ki, əslində “Hürriyyət” qəzetinin Milli Şuranın mitinqinə geniş yer ayırması AXCP-dən zaman-zaman ADP-yə qarşı irəli sürülən ittihamların əsassız olduğunu bir daha ortaya qoymuş olub:** “AXCP də-


Sərdar Cəlaloğlu

fələrlə bizi onlara, Milli Şuraya qarşı qərəzli olmaqda, düşmənçilik etməkdə, hakimiyyətə yarınmaqda ittiham edib. "Hürriyyət" qəzetinin onların mitinqinə geniş yer ayırması onu göstərdi ki, AXCP-dən irəli sürülən bu cür ittihamların heç bir əsası yoxdur. Əgər mənim hər hansı bir qərəzim olsaydı, hakimiyyətə xoş gəlməsini istəsəydim, mitinqlə bağlı materialların qəzetdə dərc olunmaması üçün lazım olan işləri görərdim. Sadəcə olaraq, mənim üçün maraqlı deyil və heç bir müdaxilə etmirəm. Ona görə də jurnalistlər nə istəyiblər onu da veriblər. Bunu belə də başa düşmək mümkündür. Əgər hökumət özü bu mitinqə razılıq veribsə, bu mitinqi işıqlandırmaq normal qarşılanmalıdır. Qəzetin tutduğu mövqe tamamilə düzgündür".

❑ **E.SEYİDAĞA**

# Rəsul Quliyev Milli Şuranın aksiyasını ələ saldı

## “Hökumətlə mitinqçilərdən başqa o mitinqdə iştirak edən və sayan azı 5 xarici ölkə nümayəndələri var”


Rəsul Quliyev

**Azərbaycan Milli Məclisinin sabiq sədri, Açıq Cəmiyyət Partiyasının lideri Rəsul Quliyev Milli Şuranın 15 mart tarixli aksiyası ilə bağlı fikirlərini bölüşüb.**

R.Quliyev publika.az-a açıqlamasında deyib ki, normal cəmiyyətlərdə insanların etiraz məqsədi ilə mitinqlərə çıxması, nümayişlər keçirməsi, kollektiv petisiya məktubları imzalaması pozitiv haldır: “Ancaq Bakıda mitinq təşkil edənlərin mitinqlə əlaqədar söylədikləri fikirlərlə mənim düşündüyüm və izah etməyə cəhd etdiyim fikirlər total fərqlənir. İlk növbədə, mənim fikrimcə, kütləviliyin təmin edilməsinə 100 faiz əminlik olmadan mitinq keçirmək hökumətin demokrat imicini artırmaqdan başqa bir şey deyil. Onların fikrincə, real kütləviliyi təmin etmək vacib deyil, qəzetlərin vasitəsilə kütləvilik effekti yaratmaq olar. Düşünürəm ki, istənilən variantda siyasi lider öz xalqına yalan deməməlidir. Onların düşüncəsinə görə, siyasət xalqa yalan demək bacarığının yüksək olması deməkdir. İndi diqqət yetirin. Hökumət mitinqə 600 insanın çıxdığını deyir, mitinq liderləri isə 10 min adamın olduğunu israr edir. Hətta mitinqə gələnlər qarışqa olsa belə, sayanda bu səviyyədə fərq ola bilməz. Bir yerdə azı bir saat dayanan insanı bu vaxt ərzində necə dəqiq saymamaq mümkündür? Hökumətlə mitinqçilərdən başqa o mitinqdə iştirak edən və sayan azı 5 xarici ölkə nümayəndələri var. Necə belə bir şəraitdə bir-birilərindən 20 dəfə fərqli olan iki hesabat ortaya çıxa bilər? İstənilən ölkədə mitinqçilərin hesabatı ilə hökumətin hesabatında azı 2 dəfə fərq olur”.

**R.Quliyev qeyd edib ki, icazə verilmiş mitinqə belə az adamın gəlməsi insanların inamının qalmadığına dəlalət edir:** “Paytaxt sakinlərinin maksimum 0.1 faizi mitinqə gəlir. Bakını qoyuram qırağa, mitinq keçirilən rayonun 200 minlik əhalisinin 5 faizi gəlsəydi, yaxşı bir mitinq alınardı. Belə bir mitinqlə isə pafoslu tələbatlar irəli sürmək gülüncdür. Əslində tərtib olunmuş tələblər sovetlərin vaxtında, məsələn, pionerlərin ABŞ-ın Vyetnamda apardığı müharibəyə qarşı tələbləri ruhundadır. Mitinqdə qoyulan tələblərin əksəriyyəti hökuməti diktatura rejiminə çağırmaqdır. Məsələn, "manatın məzənnəsi ucuzlaşdırılmasın" nə deməkdir? Qatar artıq çoxdan gedib, cənablar və xanımlar".

**R.Quliyev Milli Şuranın aprel ayına təyin etdiyi aksiyaya da münasibət bildirib:** “Mənim fikrimcə, belə mitinqlərin keçirilməsinin cəmiyyətə nəinki xeyri dəymir, əksinə, pessimizmi artırır. Aprel mitinqi mart mitinqindən zəif olacaq. Ondan sonra uzun müddət fasilə veriləcək. Mitinqin çox böyük bir əhəmiyyət kəsb etmədiyi izahatsız da aydındır. Onsuz da ölkənin indiki vəziyyəti və bundan sonra baş verəcəklərə müxalifət yox, hökumət cavabdehlik daşıyır. Əsas onlar düşünməlidirlər”.

# “Qubad bəyin Amerikada olmasının...”

## ADR nə işlə məşğuldur?

**Martın 16-da Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sənədləri “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun 12.2.-ci maddəsinə müvafiq şəkildə Ədliyyə Nazirliyinə təqdim olunub. Bu barədə ADR-in sədri Qubad İbadoğlu məlumat yayıb. Bildirilir ki, həmin qanunun 16-cı maddəsinə görə, 21 fevral 2015-ci ildə yaradılmış ADR Hərəkatının dövlət qeydiyyatı “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikası Qanunu”nun tələbləri əsasında Ədliyyə Nazirliyi tərəfindən aparılacaq.**


Qubad İbadoğlu


Ellada Məmmədli

Qeyd edək ki, ADR-in təsis konfransından az sonra Qubad İbadoğlu 5 aylığa ABŞ-a gedib. Təsis konfransından sonrakı müddətdə ADR-in manatın devalvasiyası ilə bağlı ekspertlərin iştirakı ilə tədbiri olub. Bir aya yaxın müddətdə başqa hansısa tədbiri ilə diqqəti cəlb etməyib. Belə rəy yaranıb ki, Qubad İbadoğlunun ölkədə olmaması qurumun fəaliyyətinə mənfi təsir edib və sönüklük bununla bağlıdır.

**ADR-in İdarə Heyətinin üzvü Ellada Məmmədli ilə bu mövzuda söhbətimizdə o bildirdi ki, Qubad bəyin Amerikada olmasının ADR-in fəaliyyətinə qətiyyən təsiri yoxdur:** “ADR İdarə Heyəti mütəmadi iclaslarını keçirir, qarşıda duran məsələlərin həlli ilə məşğul olur”.

Bəs qarşıdakı aylarla bağlı planlar varmı? ADR-in ayrıca olaraq kütləvi aksiya keçirməsi gözlənilməndirmi?

**Ellada Məmmədli dedi ki, ADR-in fəaliyyəti daim var:** “ADR qeydiyyatdan keçmək üçün sənədlərini Ədliyyə Nazirliyinə təqdim edib. Birinci Avropa Oyunlarının keçirilməsilə bağlı bəyanat verməşik. ADR-in qarşısındakı əsas məsələ təşkilatlanmaqdır. Bütün gücünü də bu sahəyə ayırır”.

❑ **E.SEYİDAĞA**

# Müsavatın rayon təşkilatlarına 6 həftə vaxt verilib

## Zona müşavirələri 3 aydan bir keçiriləcək

**Müsavat Partiyasının zona müşavirələri davam edir. Partiyadan verilən məlumata görə, Müsavat Partiyasında struktur fəaliyyəti ilə bağlı qəbul olunan qərarlara əsasən 3 aydan gec olmayaraq respublikanın bütün ərazisində partiyanın rayon (şəhər) təşkilatlarının zona müşavirələri keçirilir. Mart ayının əvvəllərindən partiya rəhbərliyinin nümayəndələrinin iştirakı ilə belə müşavirələr Şəki, Siyəzən, Cəlilabad, Şamaxı, Göyçay, Şirvan, İmişli, Gəncə, Ağstafa, Salyan, Neftçala şəhərlərində keçirilib.**

MÜSAVAT

50-dən çox rayon təşkilatlarının nümayəndələrini əhatə edən zona müşavirələrində Müsavat Partiyası Məclisinin Sədri Nüşabə Sadıxlı, İcra Aparatı rəhbəri Gülağa Aslanlı, başqan müavinləri Elman Fəttah, Səxavət Soltanlı, Divan üzvləri Rafiq İsmayıl, İkram İsrafil, Vəfa Cümşüdlü, Başxanım Abbaslı, Nemət Kərimli, MNTK nümayəndələri Sevinc Hüseynova, Xuraman Bağırova, Çingiz Əli, Əli Həsənov, başqan müşavirləri Cahangir Əmirxanlı, Hidayət İsmayılov, Dadaş Əhmədov, Vaqif Davud, Ramazan Əliyev, Mərdan Mehdi, Baha Mikayılov, Azər İsmayıl, Təşkilat Departamentinin rəhbəri Söhrab Məhərrəmov, İstiqlalçı millət vəkili Məryəm Həsənova və başqaları iştirak edib.

Zona müşavirələrində Müsavat Partiyası Məclisinin 25 dekabr tarixli toplantısında qəbul edilən “2015-ci il üçün Müsavat Partiyasının Fəaliyyət İstiqamətləri” haqda sənəddə qəbul olunan vəzifələrin həyata keçirilməsinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edilib. Qərarların icrası, rayon (şəhər) təşkilatların indiki durumu və görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Müşavirədə həmçinin ölkədəki iqtisadi böhran, manatın ucuzlaşması və digər ölkədaxili ictimai-siyasi vəziyyətə dair məsələlər, bu durumda Müsavat Partiyasının görəcəyi işlər barədə təkliflər dinlənilib. Parlament seçkilərinə hazırlıq çərçivəsində rayon (şəhər) təşkilatlarının dislokasiyasına daxil olan seçki dairələrindən irəli sürüləcək namizədlərin müəyyən edilməsi, təbliğat kampaniyası dövründə fəaliyyət göstərəcək təbliğatçıların, seçki günü seçkiləri müşahidə edəcək müşahidəçilərin və məntəqə və dairə seçki komissiyalarına təqdim olunacaq komissiya üzvlərinin, həmçinin deputatlığa namizədlər üçün imza toplayacaq nümayəndələrin siyahılarının hazırlanaraq təşkilat departamentinə təqdim edilməsi, eləcə də başqa məsələlərə dair tapşırıqlar verilib. Bu tapşırıqların 6 həftə ərzində icra olunması haqda Divanın qərarı rayon *(şəhər)* təşkilatı rəhbərlərinin diqqətinə çatdırılıb.

❑ **E.SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Ermənistan pozuculuq mövqeyini davam etdirir

## Düşmən ölkə atəşkəs rejimini pozmaqda davam edir; **Artur Rasizadə:** "Ermənistanın münaqişənin həllində tutduğu mövqe məsələnin həllinin qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur"

**Ermənistan silahlı qüvvələri cəbhə xəttində təxribatlarını aylardır davam etdirirlər. Beynəlxalq qurumların, həmsədr ölkələrin də narahatlıq ifadə edən bəyanatlarının ard-arda düzülməsinə rəğmən düşmən ölkə atəşkəs rejimini həyasızcasına pozmaqda davam edir. Ermənilərin bu "siyasəti" əlbəttə ki, sülh danışıqları prosesinə ziyan vurmaqdan başqa bir şey deyil. Və görünən budur ki, Ermənistan vəziyyəti gərginləşdirmək kursunu davam etdirməkdə israrlıdır.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində son sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub. Müdafiə Nazirliyinin rəsmi saytının məlumatına görə, Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndindəki mövqelərimiz atəşə məruz qalıb. Həmçinin Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz də atəşə tutulub. Bundan başqa, Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu, Talış, Tərtər rayonunun Çiləbürt, Çaylı, Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Şuraabad, Sarıcalı, Cəvahirli, Mərzili, Baş Qərvənd, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Alxanlı, Aşağı Seyidəhmədli, Aşağı Əbdülrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də silahlı qüvvələrimizin mövqeləri atəşə məruz qalıb. Düşmən cavab atəşi ilə susdurulub.

Maraqlı olan budur ki, atəşkəs rejiminin pozulması barədə Azərbaycan tərəfi hər gün rəsmi məlumat yaysa da, beynəlxalq təşkilatların mövqeyi bəyanat vermək səviyyəsindən o yana keçmir. Yeni Ermənistanın beynəlxalq hüquq normaları ilə yanaşı atəşkəs rejiminin tələblərini pozması müvafiq beynəlxalq strukturlara Ermənistanı cəzalandırmaq və sanksiyalar tətbiqi üçün əsas yaradır.

Amma hələlik aidiyyəti qurumlar təmas xəttində növbət(ç)i monitorinqlər keçirməklə kifayətlənirlər.



Artur Rasizadə

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq martın 18-də Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin rəsmi saytının məlumatına gprə, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Saymon Tiller və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçiləri Yevgeni Şarov və Jiri Aberle keçirəcəklər.

Bu arada Azərbaycanın baş naziri Artur Rasizadə Milli Məclisdə hesabat xarakterli çıxışında Ermənistanın münaqişənin həllində tutduğu mövqe ilə bağlı danışıb və bildirib ki, düşmən ölkənin davranışları məsələnin həllinin qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur: **"Təəssüflər olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar ötən il də heç bir nəticə verməyib. Ermənistanın münaqişənin həllində tutduğu mövqe mövcud status-kvonun saxlanmasına, məsələnin həllinin qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur".**

Baş nazir deyib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bunu nəzərə alaraq ordu quruculuğunun daim təkmilləşdirilməsini və ordumuzun ən müasir silah-sursatla təmin edilməsini, hərbçilərin sosial vəziyyətinin yaxılaşdırılmasını daim nəzarətində saxlayır: **"Son zamanlar hərbçilərimizin işğalçı erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdikləri təxribatlara verdiyi tutarlı cavablar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin gündən-günə artdığının əyani sübutudur".**

A.Rasizadə qeyd edib ki, hərbi quruculuq və milli ordu ilə bağlı məsələlər bütün dövlət orqanlarının, digər qurumların və cəmiyyətimizin daim diqqət mərkəzində olmalıdır: **"Sevindirici haldır ki, artıq bu diqqəti, qayğını əks etdirən çoxlu nümunələr var. Silahlı Qüvvələrə Yardım Fonduna toplanılan könüllü ianələrin ilbəil artması da ordumuza göstərilən hərtərəfli ümumxalq dəstəyinin təzahürüdür".**

# Erməniyə Moskvada verilən sürücülük vəsiqəsində doğum yeri "Dağlıq Qarabağ" göstərilib

## Rəsmi Bakı Moskvadan izahat istədi; Rusiya XİN-i məsələ ilə bağlı açıqlama verdi




**Sosial şəbəkələrdə Emil Arzangulyan adlı şəxsin Rusiya Federasiyasında aldığı sürücülük vəsiqəsində doğum yerinin "Dağlıq Qarabağ" göstərildiyi haqda məlumat yenidən gündəmə gəlib. Nəzərə çatdıraq ki, bu haqda "Yeni Müsavat" qəzeti daha əvvəl yazmışdı.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məsələ ilə bağlı mediaya verdiyi açıqlamada qeyd edib ki, Xarici İşlər Nazirliyi tərəfindən verilmiş təlimat əsasında Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi bununla əlaqədar Rusiya Xarici İşlər və Daxili İşlər nazirliklərinə müraciət ünvanlayıb. Rusiya Xarici İşlər Nazirliyindən bugünlərdə daxil olmuş cavab notasında Rusiya Federasiyasının Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyi və münaqişənin həlli çərçivəsində üzərinə götürdüyü öhdəliklərə davamlı şəkildə sadiqlik nümayiş etdirdiyi qeyd olunur. E.B.Arzangulyan tərəfindən sosial şəbəkələrdə yayılmış məlumatın heç bir halda Rusiya Federasiyasının bu məsələ ilə əlaqədar rəsmi mövqeyinə aidiyyəti olmadığı vurğulanır.




Notada həmçinin Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin 365 nömrəli 13 may 2009-cu il tarixli əmri ilə təsdiq olunmuş Rusiya Federasiyasında sürücülük vəsiqələrinin rəsmiləşdirilməsi və verilməsi haqqında qaydalara müvafiq olaraq, sürücülük vəsiqələrinin doğum yeri adlı bölməsində daha böyük inzibati-ərazi vahidinin adının qeyd olunduğu barəsində məlumat verilir.

Notada E.B.Arzangulyanın müəyyən edildiyi kimi, Azərbaycan Sovet Sosialist Respublikasının (ASSR) Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) anadan olduğunu nəzərə alaraq, onun sürücülük vəsiqəsində qeyd olunan "Dağlıq Qarabağ" ifadəsi ilə ASSR-in DQMV-nin nəzərdə tutulduğu bildirilir.

***

Bu arada beynəlxalq aləmin diqqəti Dağlıq Qarabağda keçirilməsi planlaşdırılan qondarma "parlament seçkiləri"nə də yönəlib. İsveçrə də Dağlıq Qarabağda qondarma "parlament seçkiləri"ni qanunsuz hesab etdiyini açıqlayıb. "İsveçrə Dağlıq Qarabağda bu il mayın 3-nə planlaşdırılan qondarma "parlament seçkiləri"ni qanunsuz hesab edir. Bu barədə "Trend"ə İsveçrə Xarici İşlər Nazirliyindən bildiriblər.

XİN-dən qeyd ediblər ki, İsveçrə beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edərək Azərbaycanın Dağlıq Qarabağ regionunda qondarma "seçkilər"i qanunsuz hesab edir. İsveçrə XİN təkrar edir ki, Dağlıq Qarabağ münaqişəsinin nəticələri barədə məlumatlıdır və ATƏT-in Minsk Qrupunun münaqişənin beynəlxalq hüquq normalarına uyğun həlli üzrə səylərini dəstəkləməyə davam edir.

Nəzərə çatdıraq ki, daha əvvəl Avropa İttifaqı (Aİ) Dağlıq Qarabağda qondarma "parlament seçkiləri"ni tanımadığını açıqlayıb. Aİ-nin mətbuat xidmətindən bildirilmişdi ki, Dağlıq Qarabağda "parlament seçkiləri"nin keçirilməsindən xəbərimiz var və bu istiqamətdə hadisələrin gedişatını izləyirik: **"Avropa İttifaqı, eyni zamanda Cənubi Osetiyada keçirilmiş seçkiləri tanımır. Cənubi Osetiya ilə bağlı bəyan edirik ki, Aİ Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini tanıyır".**

Həmçinin Macarıstan da Dağlıq Qarabağda qondarma "parlament seçkiləri"ni tanımır. Macarıstan Xarici İşlər Nazirliyinin bu mövqeyini mətbuata adıçəkilən ölkənin Azərbaycandakı səfiri Jolt Çutora çatdırıb: **"Seçkilər"in dünyada heç bir ölkənin tanımadığı separatçı rejim tərəfindən keçirilməsi planlaşdırılır. Bu məsələdə Macarıstan XİN-in rəsmi mövqeyi Avropa İttifaqının mövqeyi ilə tam üst-üstə düşür".**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015



# Gündəmin sillə-qapazlı mövzusu

Samir SARI

**Hər hansı mövzunun ölkə gündəminə oturması və müzakirəsi ortalama üç gün çəkir. Bir həftə, on gün çəkəni də olur, əlbəttə. Ancaq gündəm ömrü bir gün olan mövzular daha çox olur.**

Bir də görürsən, bir deputat “quş” buraxdı, jurnalistlər onu dərhal sapandla vurub saldı və söhbət başladı. İctimaiyyət “quş”un o tərəf-bu tərəfinə keçir, qanadına-quyruğuna baxır, hansı yuvanın quşu olduğuna dair bilgilər əldə edir, facebook, tvitter, instaqram səhifələrini incələyir, şərhlər yazır, suallar qoyur, cavablar tələb edir.

Əgər “quş” yiyəsi ağıllıdırsa, bir gün susur və media yerdəki “quş”u buraxır, sapandını götürüb göyə buraxılmış başqa “quş”un dalınca düşür. Sosial şəbəkələrdə cəmləşmiş ictimaiyyət də onun ardınca gedir.

Ancaq bir “quş” buraxan ard-arda başqa “quş”lar da buraxmaqda davam edirsə, media əhli hazır quşxananı özünü dağa-daşa, dərəyə-bərəyə vuran deyil, sapandını sazlayıb duracaq, sözü çürüdəcək. Beləcə, həmin mövzu gündəmdə qalmaqda davam edəcək.

Bu işlər belədir. Bunun sirrini özüm bilə-bilə açıb deyirəm ki, hər kəs agah olsun.

Budur, neçə gün idi boşluq idi, bir-birinin ardınca ehtiyatsız sözlər danışmış deputatlar susmağı üstün tuturdu lar, o biri deputatlar da ağzından söz qaçırmış, nəticədə hoydu-hoyduya götürülmüş həmkarlarının taleyindən ibrət alaraq danışmırdılar. Milli mediamızın zəhmətkeşləri məcbur olmuşdular gündəmə dartıb müzakirə etmək üçün mövzunu qonşu ölkələrdən borca götürsünlər. Allahdan, ən böyük qonşu ölkənin prezidenti də sifətini qorumaq (həm də sözün əsl mənasında) üçün beş-altı günlük taym-aut götürmüşdü, barəsində şayiələr dolaşırdı. Amma ondan bizə gündəm olmazdı.

Nəhayət, dünən təzə söhbət çıxdı: xəbər gəldi ki, ölkənin məşhur ziyalılarından birinin qızı gecə saatlarında öz tanışı, dostu olan oğlanlar tərəfindən döyülüb.

Pəh! Söhbət budur! Nə Putin, nə Kseniya Sobçak, nə Avropa Oyunları, nə Eurovision, nə üç ton heroin məsələsi, nə Aslan Aslanov, nə Lamiyə, nə mitinq, nə bahalaşma, nə başqa söhbətlər... Mövzu belə olar.

Qadını gecə saat 4-də döyüblər - bu tamam başqa istiqamətdir. Bu yerdə rəylər haçalanır. “Gecə vaxtı qızın küçədə nə işi vardı” mülahizəsinin tərəfdarları ilə “İki kişinin bir qadını döyməsi ... yumşaq desək, yaxşı deyil” fikrinin müdafiəçiləri arasında qırğın gedir. Söyüşmə, nifrət dolu şərhlər və s.

Olaya adı qarışanların hamısının yeddi arxa dönənləri olmasa da, avtobioqrafiyaları, bugünkü durumları açılıb ortaya tökülməkdədir.

Kənardan baxanlar bu işə mat qalır: axı nəyə görə bu mövzu bu qədər ajiotaj doğurmalıdır? Nə baş verib axı? İki bir-biriylə münasibəti olan cütlük arasında söz çəpləşməsi olub, dartışma-filan, bir az da şillə-qapaz aktları yer alıb, vəssalam. Xəsarət alan yox, yaralanan yox, ölən yox. Heç nəinki siyasi sabitlik, hətta ictimai asayiş də pozulmayıb - hadisə gecə saat 4-5 arasında olduğu üçün. Adətən, gecənin, daha dəqiqi, səhərin bu vaxtları ən sayıq qazlar, ac tülkülər də yatmış olur.

Amma baxırsan ki, yox, bu, ictimai-siyasi əhəmiyyət kəsb edən məsələdir. Ortada ölkənin adlı-sanlı ziyalılarından birinin adı çəkilir - bir. Söhbət gecə həyatı yaşayan imkanlı şəxslərdən gedir - iki. Dünyanın hər tərəfində “qadına qarşı zorakılıq” qınandığı bir vaxtda zəif və zərif bir qadını dönüb-dönüb şillələyirlər - üç. Məsələ kriminal aləmin avtoritetlərinə bağlanır - dörd. Rəqibinə plastik su butulkası atana 5 il iş kəsilən ölkədə köməksiz qadını döyənlər məhkəmə zalından azad olunur - beş.

Media bu mövzunu özbaşına buraxa bilməz. Göründüyü kimi, buraxmır da. Dünəndən bəri bu mövzuda 147 fərqli-fərqli, ilginc-ilginc, şok-şok xəbərlər, fotolar, videolar yayılıb və proses davam edir. Sona qədər belə gedəcək. Döyülən şəxs şikayətçi olsa da, olmasa da. Xalq hər şeyi bilməlidir.

Düzdür, 2-3 gündən sonra camaat bu söhbətdən bezəcək, jurnalistləri ittiham edəcəklər ki, mövzunu qəsdən gündəmdə saxlayırsınız, sifariş almısınız, muzdla yazırsınız və s. Hərçənd günü bu gün bu mövzuda yazmağı dayandırsaq, yenə ittiham hazırdır: “Nə oldu, puldan basıb ağzınızı bağladılar? Niyə yazmırsız? Niyə mövzunun üstünə getmirsiniz? Satıldınız”.

Arzu edək ki, üç gündən sonra gündəmə yeni mövzu girsin və “satqın”, “muzdlu yazar” damğası almamış bu işdən qurtulaq.

# Deputatla Şəmkirin icra başçısının qovğası qızışdı

## Etibar Hüseynov Şəmkirin rəhbərini “Bu şəhərdə”nin konsertinə sponsorluqda ittiham etdi, başçı müavininin verdiyi cavab isə aranı yenidən qarışdırdı

**Deputat Etibar Hüseynov doğulduğu Şəmkir rayonunun icra başçısını “topa tutub”. O, Alimpaşa Məmmədovun fəaliyyətindən narazılığını özünün facebook səhifəsində yazıb.**



Alimpaşa Məmmədov



Etibar Hüseynov

**Sitat:** “Bir sıra hüzr məclisləri ilə bağlı 3 gündür ki, Şəmkirdəyəm. Harada oturursan camaat bazar günü rayon mərkəzində keçirilən ”Bu şəhərdə"nin konsertindən danışır. Məlum olur ki, sən demə, yeni icra başçısı KVN və “Bu şəhərdə”nin qatı pərəstişkarıymış və konserti də şəxsən özü təşkil eləyib. Çox maraqlıdır ki, gecə-gündüz reklam olunmasına baxmayaraq, kassalarda bircə bilet belə satışa çıxarılmayıb. Bütün biletlər Alimpaşa müəllimin tərtib elədiyi siyahı əsasında büdcə təşkilatlarına paylanıb.

Bəlkə də bütün bunlara əhəmiyyət verməmək də olardı. Ancaq biləndə ki, yeni başçı “Bu şəhərdə”nin konserti ilə əlaqədar *(başı möhkəm qatışıq olduğuna görə)* 10 gündür ki, heç kəsi qəbul eləmir... Bax bu hal təəssüf doğurur".

Deputatın tənqidlərinə Şəmkir RİH-dən cavab verilib. İcra başçısının müavini Sona Əliyeva modern.az-a deyib ki, konsertə xərclənən vəsaitin A.Məmmədova heç bir aidiyyəti yoxdur. Onun sözlərinə görə, heç də “Bu şəhərdə”nin konsertinin baş tutması üçün bilet satışı olmayıb.

“Çünki ”Bu şəhərdə"nin təşkilatçısı “Synergy” MMC qrup konsertin dəvətnamə ilə təşkil olunmasını məsləhət görüb. Eyni zamanda konsertdə Şəmkirin icra başçısı Alimpaşa Məmmədov iştirak edə bilməyib. Ona görə də martın 16-da rayonun “Bayraq meydanı”nda əhali üçün pulsuz ikinci konsert buraxılışı keçirilib. İcra başçısı Alimpaşa müəllim konsert buraxılışında iştirak edəcək. Şəmkirdə “Bu şəhərdə”nin konsertinin baş sponsoru və bütün təşkilatı məsələlər “Synergy” MMC qrupa aiddir. Bu konsertə icra başçısı heç bir vəsait xərcləməyib".

**E.Hüseynov isə yenidən facebookda verilən cavaba münasibət bildirib:** “Bir sıra saytlarda Şəmkir rayon icra başçısı Alimpaşa Məmmədovun mənə cavabı dərc olunmuşdu. Düzü, həmin açıqlamanı telefonla mənə oxuyanda qulaqlarıma inanmadım. Çünki başçı olan kəsin bu dərəcədə ”quş" buraxacağı ağlasığmaz idi. Ona görə də yazını “kopi” edib saxlamaq tapşırığı verdim. Fəqət ehtimallarım özünü doğrultdu. Üstündən heç 1 saat keçməmiş başçı yayımladığı açıqlamaların hamısını saytlardan yığışdırtdı.

Amma köməkçilərim imkan edib həmən yazıları “kopi” edib saxlayıblar. Həmən cavabları və Alimpaşa Məmmədovun öz açıqlamasını hansı səbəbə görə yığışdırmasını açıqlayacağam".

**Deputatın telefonu bağlı olduğu üçün özü ilə danışmaq mümkün olmadı.**

❑ E.SALAMOĞLU

# MTN “Ləzgi” məscidinin imamını həbs edib

## Mübariz Qarayev də daxil olmaqla, həbs edilən vəhhabilər barəsində həbs qərarı ötən ay verilibmiş

**Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi Bakıda radikallara qarşı daha bir məxfi əməliyyat keçirib. Virtualaz.org saytı dini etiqad azadlıqlarının monitorinqi üzrə ixtisaslaşmış Norveç təşkilatı “Forum-18"-ə istinadən xəbər verir ki, təxminən fevralın sonlarında-martın əvvəllərində İçərişəhərdəki Aşurbəy-”Ləzgi" məscidinin imamı Mübariz Qarayev də daxil olmaqla, 5 vəhhabi saxlanılıb. Məlumata görə, onların barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Lakin MTN bu həbs əməliyyatına dair hər hansı şərh verməkdən imtina edib. Bununla belə, təşkilata məlum olub ki, saxlanılanlara qarşı qadağan olunmuş dini ədəbiyyat yaymaq ittihamı irəli sürülüb.**



Mübariz Qarayev

“Forum-18" qeyd edir ki, saxlanılanların ailə üzvləri danışmağa da qorxurlar və yaxınlarının həbsinə dair hər hansı məlumat verməyiblər.

Qeyd edək ki, İçərişəhərdəki “Ləzgi” məscidi ölkədə radikal dini cərəyanları təbliğ etdiyinə görə hökumətin hədəfində idi. Bir il əvvəl Qafqaz Müsəlmanları İdarəsində (QMİ) keçirilən toplantıda İçərişəhər “Cümə” məscidinin axundu Hacı Surxay Məmmədli “Ləzgi” məscidinin qapadılmasını təklif edib. S.Məmmədli bildirib ki, ölkə daxilində sabitliyi pozmağa çalışan xüsusi radikal qruplar var: “Bunlar sələfilik, vəhhabilik, təkfirçilik, xəvariclikdir”.

Həmçinin “Əbu Bəkr” məscidinin imamı Qamət Süleymanov ötən ilin yanvarında bəyan etmişdi ki, Mübariz Qarayev və Əlixan Musayev xəvariclərə qoşulub və Azərbaycanda radikalizmi təbliğ edir.

Əlixan Musayev Azərbaycanda xəvariclərin lideri kimi tanınır və onun adı Azərbaycandan Suriyaya adamların göndərilməsini təşkil etməkdə hallanıb. Əlixan Musayev və Mübariz Qarayev qohumdurlar, xalaoğullarıdır və yerli mətbuatda yer alan iddialara görə, Suriya və İraqda, İŞİD, “əl-Nüsra Cəbhəsi” və digər radikal qruplaşmaların tərkibində döyüşən azərbaycanlıların əksəriyyəti onların müridləridir.

“Forum 18" Mübariz Qarayev və digərlərinin həbsinə dair şərh almaq üçün MTN-in mətbuat xidmətinə zəng vurub. Mətbuat xidmətindən adını açıqlamaqdan imtina edən rəsmi 6 vəhhabinin və iki Yehova şahidinin həbsinin onlarla əlaqəsinin olmadığını, bütün sualların Baş Prokurorluğa ünvanlanmalı olduğunu deyərək dəstəyi asıb.

Baş Prokurorluğun, habelə Səbayel Rayon Prokurorluğunun ofisində isə telefon zənglərinə cavab verməyiblər. “Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin mətbuat katibi Yaqut Əliyeva da sualları cavabsız qoyub”-"Forum 18" bildirir.

“Forum 18" onu da bildirir ki, Mübariz Qarayev də daxil olmaqla, həbs edilən vəhhabilər Dini Qurumlar üzrə Dövlət Komitəsinin vəzifəli şəxslərinin Bakıda dini kitablar satan ”Burhan" mağazasında keçirdiyi reydlərdən sonra həbs edilib. Bu beş nəfərin dostları iddia edir ki, bütün kitablar komitədən ilkin razılıq alınmaqla ölkəyə gətirilmişdi. Reydlərdən sonra mağaza bağlanmayıb. “Ləzgi” məscidinin imamı M.Qarayev həmin kitab mağazasında da işləyir. Dostlarının dediyinə görə, onu birinci dəfə MTN-ə yanvar ayında, cümə günlərinin birində çağırıblar. Ancaq müəyyən müddət saxladıqdan sonra buraxıblar. M.Qarayev və digər vəhhabilər -Həbibulla Ömərov, Səlim (familiyası məlum deyil) və Eyvaz (familiyası məlum deyil) fevralın 24-də yenidən MTN-ə çağırılıblar. Orada onları saxlayıblar və iki gün sonra məhkəməyə çıxarıblar. Fevralın 26-da Səbayel Rayon Məhkəməsi saxlanılanların barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçib. Hazırda onlar MTN-in təcridxanasında saxlanılır. Daha bir radikal dindar-Azad Qafarov isə fevralın 26-da MTN-ə çağırılıb. Fevralın 28-də Səbayel Rayon Məhkəməsi onun da barəsində həbs-qətimkan tədbiri seçib.

Səbayel Rayon Məhkəməsinin dəftərxanasından bu şəxslər üzərində məhkəmə prosesinə dair “Forum 18"-in suallarını cavablandırmaqdan imtina ediblər.

Saxlanılanlardan Ömərov və Qafarov Cinayət Məcəlləsinin 167-2.2.1 maddəsi (qadağan olunmuş dini ədəbiyyat yaymaq), M.Qarayev, Səlim və Eyvaz isə 167-2.1 maddəsi ilə ittiham olunurlar.

❑ HÜSEYN

# Bakıda “İran həbsləri” - Ceyhun Cəfərovun yaxınları istintaqa cəlb edildi

## “Təkamül” Tərcümə Mərkəzində axtarış aparılıb; ötən həftə həbs olunmuş ilahiyyatçı Ceyhun Cəfərovun işlədiyi ofisin əməkdaşlarının kompüter və mobil telefonları müsadirə olunub

**Dini hüquqlar üzrə ixtisaslaşmış “Forum 18" təşkilatı ötən həftə həbs olunmuş ilahiyyatçı, ”Təkamül" Tərcümə Mərkəzinin rəhbəri Ceyhun Cəfərovla bağlı məlumat yayıb. Azadlıq Radiosunun məlumatında qeyd olunur ki, “martın 10-da şiə teoloq və tərcüməçi Ceyhun Cəfərov saxlanıb. O, Azərbaycanda din və inanc azadlığından istifadəyə görə cəzalandırılan şəxslərdəndir”.**

Məlumatda o da qeyd olunur ki, 42 yaşlı Ceyhun Cəfərov “Space” televiziyasında “Gecə söhbətləri” verilişinin aparıcı olub. O, “Təkamül” Tərcümə Mərkəzinə rəhbərlik edib. Martın 4-də qardaşı ilə İrandan qayıdıb. Qardaşı qonşu ölkədə böyrəyini əməliyyat etdirib.

Qeyd edək ki, C.Cəfərov barəsində ötən həftə məhkəmə 4 aylıq həbs-qətimkan tədbiri seçib. Martın 16-da isə MTN əməkdaşları “Təkamül” Tərcümə Mərkəzinin Yasamal rayonu ərazisində yerləşən ofisində axtarış aparıblar. Mərkəz əməkdaşlarının bildirdiyinə görə, əməliyyatçılar ofisdə kitabları, kompüterləri yoxlayıblar, eyni zamanda ofisdə olan əməkdaşların kompüterlərini və mobil telefonlarını müsadirə ediblər. Yaxınlarından aldığımız məlumata görə, Tərcümə Mərkəzinin bəzi əməkdaşları dindirilməyə çağırılıb.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015



# Vergilər və qiymət artımı şadlıq evlərini də “vurdu”

## Restoran sahibləri deyir ki, müflis olmamaq üçün qiymətləri artırmağa məcburdurlar

**Manatın devalvasiyası ilk olaraq market və bazarlarda həm yerli, həm xarici ərzaq məhsullarını 30-35 faiz bahalaşdırdı. Hökumət inzibati yollarla qiymət artımının qarşısını almağa çalışsa da, sonradan bunun mümkün olmadığını etiraf etməyə məcbur oldu. Qida sektorundan asılı olan xidmət sahələrindən biri də şadlıq sarayları olduğu üçün bugünlərdə onların da qiymətlərdə dəyişiklik edəcəyi gözlənilir. Belə ki, hazırda restoran menyularının əsasını təşkil edən ərzaq məhsulları, spirtli içkilər 30 faizdən artıq bahalaşıb və bu şadlıq saraylarında stolların qiymətinin artması ilə nəticələnə bilər. Hazırkı durumda qiymət artımının olub-olmadığını öyrənmək üçün bir neçə şadlıq sarayı ilə əlaqə saxladıq.**

**“Venesiya” şadlıq sarayının** administratoru Bayram Əyyubov vəziyyətin acınacaqlı olduğunu bildirdi: “Ərzaq məhsullarının bahalaşması yox, vergi müfəttişlərinin və digər qurumlardan gələn yoxlamaların kəsdiyi cərimələr bizi pis vəziyyətdə qoyur. Bu gün 5 müxtəlif qurumdan yoxlama üçün gəliblər, eyni məsələni bir neçə qurum yoxlayır. Vergiləri o qədər artırıblar ki, restoran sahibi müflis olmamaq üçün qiymətləri artırmağa məcburdur. Bizim qiymətlərdə hələ ki artım yoxdur. Ancaq belə davam etsə, çox güman ki, qiymətlər 30 faiz bahalaşacaq. Vergilər Nazirliyi əvvəl bizimlə partnyor işləyirdi, hər il xronometraj aparırdı. Qanunla həyata keçirilən bütün tədbirlərə, cərimələrə razıyıq. Ancaq bizim restorana monitor quraşdırıb, aylıq işimizə də nəzarət edəcəklər. Bu, qanunla yolverilməzdir. Digər tərəfdən, Əmək Müfəttişliyi bizi məcbur edir ki, çalışan bütün ofisiantları işə götürüm. Bizdə ay ərzində bir neçə dəfə toy olur. Mən hər ofisianta aylıq əmək haqqı, üstəgəl bunun vergisini və sair necə ödəyim? Fövqəladə Hallar Nazirliyi də təhlükəsizliyə, İqtisadi İnkişaf Nazirliyi isə qiymətlərə görə yoxlama aparır. Bir biznes qurumunu 18 dövlət təşkilatı yoxlayırsa, orada hansı işdən söhbət gedə bilər. Hər gün həyəcan içindəyik, rahatlığımız yoxdur. Biz dövlətimizi sevirik, onun vergisini də vaxtı-vaxtında ödəyirik, ancaq belə getsə, fəaliyyətimizi dayandırmalı olacağıq”.

Qeyd edək ki, əlaqə saxladığımız digər restoranlar vergilərlə bağlı narahatlığın olmadığını bildirsələr də, bahalaşma səbəbindən qiymət artımlarının qaçılmaz olduğunu dedilər.

**“Xudafərin” şadlıq sarayının administratoru bildirdi ki, növbəti ayda qiymətlərin artıb-artmayacağı bəlli olacaq:** “Manatın ucuzlaşmasından əvvəl bizim müştərilərlə müqavilələrimiz, razılaşmalarımız olub, indi bu razılaşmaya zidd gedib qiyməti artıra bilmərik. Ancaq növbəti aydan hər şey bəlli olacaq. Hazırda hamı gözləmə mövqeyindədir. Biz də əvvəlki qiymətlərlə işləyirik. Stolların qiyməti 35-45 manat arasındadır”.

**“Səma” şadlıq sarayının administratoru Şahin Rzayev bildirdi ki, vergilərlə bağlı hər hansı narahatlıq yaşanmır:** “Vergilərlə bağlı problemimiz yoxdur. Çünki bu aralar işlərimiz də zəif gedir. Biz hazırkı qiymətlərlə öncədən sövdələşmişik, indi qaldıra bilmərik. Bundan sonra qiymətlərin necə olacağına isə rəhbərlik qərar verəcək”.

**“Praqa” şadlıq sarayının administratoru Şahmar Alışov bildirdi ki, bahalaşma səbəbindən qiymət artımı qaçılmazdır:** “Hələ ki heç bir qiymət artımına yol verməmişik. Ancaq uzun müddət belə davam edərsə, qiymətlər arta bilər. Çünki xaricdən gətirilən məhsullar, xüsusən də spirtli içkilər kəskin bahalaşıb. Qiymətlər bayramdan sonra məlum olacaq. Hələ ki hamı gözləmə mövqeyindədir”.

**“Çingiz xan” restoranının administratoru Münasib Abdullayev də qiymətlərin dəyişmədiyini qeyd etdi:** “Qiymətlər dəyişməyib, əvvəl necə idisə, indi də elədir. Stolların qiyməti 40-60 manat arasındadır. Bundan sonra necə olacağı bayramdan sonra bəlli olacaq. Çünki hazırkı bahalığın bir qismi də bayrama görədir”.

**Mövzu ilə bağlı fikirlərini “Yeni Müsavat”la bölüşən iqtisadçı ekspert Natiq Cəfərli isə bildirdi ki, hökumətin sahibkarlara qarşı həyata keçirdiyi sərt inzibati tədbirlər daha çox qiymət artımına səbəb olacaq:** “Çox təəssüf ki, hökumət manatın devalvasiyasından sonra hökumət iqtisadi islahatlar paketi işləyib hazırlamaqdansa, əlavə addımların atılacağını, kiçik və orta biznesə dəstək planlarının olacağını deməkdənsə, əksinə, ancaq inzibati yolla kiçik və orta biznesin üzərinə getməklə büdcə itkilərini kompensasiya etməyə çalışır. Hazırda hökumət birmənalı şəkildə, kiçik və orta biznesi çökdürməklə məşğuldur. İnzibati yollarla nə qədər çox inzibati müdaxilələr olacaqsa, təbii ki, iqtisadi proseslərin normal axınını pozacaq və daha çox qiymət artımı üçün zəmin yaradacaq. Nə qədər çox inzibati orqan biznesə müdaxilə edirsə, bu daha çox qiymət artımı deməkdir. Azərbaycan reallıqlarını nəzərə alsaq, gəlib - gedənləri "yola salmaq" lazımdır və bütün bu xərclər sonradan məhsulların və xidmətlərin üzərinə qoyulur. Ona görə də mən restoran sahiblərinin narahatlığını anlayıram. Onların qiymət artımına getməmək kimi bir lüksü yoxdur. Ölkədə istehsal olunan və idxal olunan məhsulların qiyməti daha çox artacaq. Hələ ki inzibati addımlarla bunun qarşısı alınır. Devalvasiyadan öncə alınan məhsullar anbarlarda ehtiyatda var və onlardan istifadə olunur. Ancaq ən geci bir aydan sonra, bütün bu amillər də aradan qalxacaq. Nə qədər ki, yetkili orqanlar biznes idarələrinə müdaxilə edəcəklər, bu, iş yerlərinin bağlanmasına, insanların müflis olmasına, iş yerlərini itirməsinə, son nəticədə isə qiymətlərin daha sürətlər artmasına gətirib çıxaracaq. Birmənalı şəkildə deyə bilərik ki, indi atılan iqtisadi addımların heç bir effekti yoxdur, əksinə, vəziyyəti daha da kəskinləşdirir və bir neçə həftədən sonra biz bunun fəsadlarını daha aydın şəkildə görəcəyik".

❑ **Nərgiz LİFTİYEVA**

---

**Ötən həftə Beynəlxalq Valyuta Fondunun Ukraynaya 5 milyard ayırması, Rusiya prezidentinin 5-ci dəfə ata olması, İraq ordusunun Tiqriti İŞİD-dən təmizləməsi, Pakistan prezidenti Məmnun Hüseynin Azərbaycandan məmnun qalması ilə bir yerdə deputat Hadı Rəcəblinin müəllimlərə “150-200 manatla dolana bilmirsiz, gedin fəhləlik eləyin” məsləhəti ilə yadda qaldı. Qəzetlər məsləhətdən manşet düzəltdi, nyu-media mövqeni münasibətə caladı, sosial şəbəkə lərzəyə gəldi. Amma axırda həmişəki kimi heç nə olmadı.**

**Aygün MURADXANLI**



# Hadı, Bəy, Zamin

Yəni olmalı olan şey olmadı - bir müəllim, bir müəllim təşkilatı demədi ki, ay Hadı Rəcəbli, haydı söylə, sənin müəllimlərin daş yonur, suvaq çəkir, bənnalıq eləyirdimi? Səsləri də çıxmadı... Seçki deyil ki, müəllimlərin fəallığını görək?..

Azərbaycanda müəllimlərin çox vaxt ikinci işi olub. Həmişə də məcburiyyətdən. Məsələn, Azərbaycanın ən savadlı müəllimlərindən biri, uzun illər ölkənin siyasi həyatını özündən asılı vəziyyətdə saxlayan, bir çox siyasinin həm gerçək, həm məcazi mənada müəllimi olan sabiq prezident Əbülfəz Elçibəy zamanında daş daşıyıb. Ancaq Elçibəy bu işi o zamankı Ali Sovet deputatlarının məsləhəti ilə eləməyib. Ötən əsrin 70-ci illərində kommunist rejimi onları devirməyə cəhd etdiyi üçün Əbülfəz müəllimi həbs etmişdi. O zaman dustaqları islah *(öz aləmlərində)* etmək üçün ağır işlərdə çalışdırırdılar. Əbülfəz Elçibəyin cəza çəkdiyi kolonun payına Qaradağ daş karxanalarında işləmək düşmüşdü. Rəhmətlik Bəy danışırdı ki, hər dustağın günlük norması varmış və o, mütləq yerinə yetirilməliymiş. Ancaq məhbus yoldaşları onun daş daşımasına imkan vermirmiş. Elçibəyin yükünü məmnuniyyətlə çəkən dustaqların ondan yalnız bir istəyi varmış - “müəllim, sən danış”. Ağlınız indiki deputatlara getməsin, onda dustaqlar da müəllimin qədir-qiymətini bilirmiş.



Bizim bir neçə istixanası olan müəllimimiz vardı - Moskvaya qərənfil vururdular. Sonra 20 Yanvar oldu, qərənfil “bayram gülü” olmaqdan çıxdı. Sonra Hadı Rəcəblinin təmsil olunduğu hökumət gəldi, qazın qiymətini elə qaldırdı ki, indi istixanaları ancaq deputatlar, icra başçıları, prokurorlar saxlaya bilir. Bəzi rayonlarda heç polis rəislərinin də əli istixanalara “girmir”. O ki ola müəllimin ağzıdı, yəqin siz bu sətirləri oxuyarkən Rəsul Quliyev demiş, “badbaxt” Naxçıvan müəllimləri küçə süpürür...

Maaşla dolanmaq həmişə çətin olub. Azərbaycan dünyanın o ölkələrindəndir ki, işləyənlər, o sıradan müəllimlər heç zaman sərf elədikləri əməyə adekvat maaş almayıblar. Alsaydılar, dərsdən sonra xan kimi oturardılar evlərində, alardılar əllərinə kitabı, biliklərini artırar, öyrəncilərinə daha çox fayda verərdilər, güzəran, dolanışıq dərdi çəkməzdilər. Uşaqları da gedib Zamin Hacı kimi “kaptorqda” işləməyə məcbur olmazdı.

Bir də Naxçıvan praktikası var. Vasif Talıbov illərdir Naxçıvan müəllimlərinin əlinə bel-çəng-süpürgə verib küçələrə, tarlalara işləməyə göndərir. Adını da qoyublar iməcilik. Bu iməcilikdisə, niyə ancaq müəllimə aiddir? Polisə, prokurora, icra orqanlarında işləyənlərə iməcilik düşmür? Yaz

Redaksiya “istihbarat”ından əldə etdiyimiz informasiyaya görə, müəllim oğlu olan Zamin Hacı bir dönəm bazarda meyvə-tərəvəz satıb. Təbii, o, piştaxta arxasında kefindən, ya da gələcəkdə yazacağı yazıların prototipləri ilə yaxından tanışlıq olmaq üçün dayanmayıb, bunu ailə büdcəsinə qatqı üçün edib. Hadı Rəcəblidən fərqli olaraq Zamin “istihbarat”ın bu haqda informasiyasını “kontekstdən çıxarılmış xəbər, məqsədli şəkildə onun imicinə, işgüzar nüfuzuna vurulmaq istənən zərbə”-filan adlandırıb təkzib etmədi. Olanı dedi. Kələm satdığı günlərin yadigarını - rəngi solmağa başlayan fotonu da göndərdi.

Ayıb kələm satmaq deyil e, ayıb kələm kimi qat-qat yalan danışıb - “Milli Məclisin Sosial siyasət komitəsi olaraq əhalinin sosial durumunu yaxşılaşdırmaq üçün təzə-təzə qanunlar yazırıq” deməkdi.

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015

# Novruz süfrəsi neçəyə başa gəlir?

## Təkcə şirniyyatların hazırlanması üçün 51 manat lazımdır

**Novruz bayramına sayılı günlər qalır. Artıq əksər ailələrdə bayram süfrəsi üçün bazarlıqlar tamamlanıb, evin xanımı Novruz şirniyyatlarını hazırlamağa, kişilər isə evi lazım olan ərzaq məhsulları ilə təmin etməyə çalışır. Bayram özü ilə nə qədər sevinc gətirsə də, əhalinin aztəminatlı hissəsi bazarlardakı bahalaşma səbəbindən süfrəyə lazım olan təamları düzə bilməməyin kədərini yaşayır.**






Bir tərəfdən manatın devalvasiyasından sonra ərzaq məhsullarının qiymətinin artması, digər tərəfdən bayramla bağlı bahalaşma insanları çıxılmaz vəziyyətə salıb. Əhali bayram süfrəsindən bəzi məhsulları ixtisar etməyə məcbur olub. Bəs görəsən, 4 nəfərlik bir ailənin bayram süfrəsi üçün nə qədər vəsaitə ehtiyac var. "Yeni Müsavat"ın müxbiri bazarlara baş çəkərək bayram bazarlığının neçəyə başa gələcəyini hesablayıb.

İlk növbədə Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi yarmarkalardakı qiymətlərlə tanış olub, bayram süfrəsinin hazırlanması üçün nə qədər xərc tələb olunduğunu hesablamağa çalışdıq.

Başlayaq, Novruz bayramının "olmazsa-olmaz" sayılan şirniyyatları şəkərbura, paxlava, qoğal və badamburanın hazırlanması üçün lazım olan məhsulların dəyərini hesablayaq. Bunun üçün 2 kq un-1 manat, 2 kq yağ - 16 manat, 1 l qatıq -1 manat, 10 ədəd yumurta - 70 qəpik, 1 kq qoz ləpəsi- 16 manat, 1 kq fındıq ləpəsi - 14 manat, 2 kq şəkər tozu -2 manat, əlavə ədviyyatlar üçün 1 manat vəsaitə ehtiyac var. Beləliklə, Novruz şirniyyatlarının hazırlanması 51.7 manata başa gəlir.

Bayram süfrəsini aşsız təsəvvür etmək də mümkün deyil. Novruz aşının hazırlanmasına lazım olan ərzaqlar: 1 kq düyü 2.50, 1 kq ət- 6 manat, yarım kq yağ-4 manat, şabalıd (250 qram)- 2 manat, ərik qurusu (250 qram)- 2 manat, kişmiş (250 qram) - 1.5 manat. Bu hesabla bayram üçün hazırlanan plovun ümumi xərci 18 manatdır.

Novruz süfrəsinin ən vacib təamlarından bir də balıqdır. 1 kq balığın qiyməti isə orta hesabla 8 manatdır.

Salatlıq tərəvəzlərin qiymətinə gəlincə, pomidor 2.6 manat, xiyar 2 manatdır. Göyərtilərin 5 dəstəsini isə 1 manata almaq mümkündür. Ən sadə halda salat üçün 5.6 manata ehtiyac var.

Süfrəyə qoyulan meyvələrin qiymətinə gəlincə, burada da bazara cibidolu girməyiniz vacib şərtdir. 4 nəfərlik kiçik bir ailəni bayram günlərində meyvə ilə təmin etmək üçün hər meyvədən azı 1 kiloqram alınmalıdır. Beləliklə, 1 kq alma-1 manat, 1 kq portağal- 2.5 manat, 1 kq armud -2.5 manat, 1 kq banan-2.5 manat, 1 kq nar - 2 manat, qərzəkli meyvələrdən 1 kq qoz -5 manat, 1 kq fındıq-4 manat, 1 kq püstə - 12 manat, 1 kq iydə-3 manat, 1 kq innab- 3 manatdır. Meyvələrin alınması üçün ailə başçısı 39 manat 50 qəpik xərcə düşməlidir. Təbii ki, burada ixtisarlar aparmaq, meyvələrin çəkisini yarım kiloqrama endirmək də lazım gələ bilər. Qiymətlərin bu qədər baha olması alıcılığa təsir edən başlıca amillərdəndir.

Süfrəyə qoyulan noğul və konfetləri də ümumilikdə 7 manat hesablasaq, Novruz süfrəsinin hazırlanması xərci 130 manata başa gəlir.



Təbii ki, bayram süfrəsinə dolma, ləvəngi, müxtəlif salatlar da əlavə oluna bilər. Bu zaman xərclər 200 manata qədər artır.

Bu sadaladıqlarımız sadəcə 4 nəfərlik bir ailənin bayram süfrəsi üçün lazım olan xərc idi. Daha geniş tərkibli ailələr, qohum-qonşularına bayram payı aparmaq istəyənlər üçün 200 manat da az olacaq.

Dövlət Statistika Komitəsi ölkədə yanvar-fevral aylarının yekunu olaraq, ölkə üzrə orta-aylıq əmək haqqının 444,4 manat olduğunu açıqlayıb. Bu hesabla hər bir vətəndaş əmək haqqının yarısını Novruz bayramını keçirmək üçün xərcləməlidir. Belə olan halda bayram çətin ki, əhalini sevindirə bilsin.

Sonda onu qeyd edək ki, bayramda süfrənin bolluq olması nə qədər önəmlidirsə, insanların əhval-ruhiyyəsinin yüksək olması, yeni təbiət ilinin sevinc və şadlıqla qarşılanması bundan daha önəmlidir.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**



# 2 ton 790 kiloqramlıq heroin işində hökm oxundu

## Külli miqdarda narkotikin Gürcüstana Azərbaycan ərazisindən keçirildiyi bir daha təsdiqləndi; idarə rəisinin yalanı ifşa oldu

**Azərbaycan üzərindən Gürcüstana keçirilən 2 ton 790 kiloqram maye heroin işində məhkəmə hökmü elan edilib. Gürcüstanın Batumi şəhər məhkəməsi bu iş üzrə ittiham olunan Türkiyə vətəndaşı Bayram Coşquniyə qiyabi olaraq ömürlük həbs cəzası çıxarıb. Gürcüstan vətəndaşı Yevgeni Gorqadze və Türkiyə vətəndaşı Şefik Semzioğlu isə bəraət alıb.**

Məhkəmədə narkotikin Azərbaycan sərhədlərini aşaraq Gürcüstana daşındığı qeyd olunub. Maraqlıdır ki, bu fakt Azərbaycan rəsmiləri tərəfindən cidd-cəhdlə inkar edilir. Hətta Azərbaycan Dövlət Gömrük Komitəsinin İstintaq İdarəsinin rəisi Ülvi Zülfüqarov Az.TV-nin efirində bildirib ki, narkotiklərlə dolu nəqliyyat vasitəsi Azərbaycan ərazisindən Gürcüstana keçməyib. 2015-ci il fevralın 1-də trend.az idarə rəisinin həmin müsahibəsinin (http://az.trend.az/business/economy/2359367.html) stenoqramını yayınlayıb. İstintaq İdarəsinin rəisi narkotikin ölkəmizin ərazisindən keçirilməsini inkar etmişdi: "Yəni narkotik vasitələrlə yüklənmiş maşının Azərbaycan ərazisindən keçdiyini demək əsassızdır".

Yada salaq ki, 2014-cü il iyulun 12-də Gürcüstan DİN-in əməkdaşları Azərbaycan üzərindən keçib bu ölkəyə daxil olan yük maşınında axtarış apararkən maye halında olan 2 ton 790 kiloqram maye heroin aşkar ediblər. Heroin maye sabun adı altında 93 ədəd 30 kiloqramlıq çəlləkdə qablaşdırılıb və yuyucu maddə adı altında Moldovaya aparılmalı idi. Heroinin orada saflaşdırılandan sonra Avropaya keçirilməsi planlaşdırılmışdı. Külli miqdarda narkotik partiyası ələ keçəndən 2 həftə sonra Gürcüstanın daxili işlər naziri Aleksandr Çikaidze bəyan etmişdi ki, yük Əfqanıstan mənşəlidir, Gürcüstan hüquq-mühafizə orqanlarının məlumatına görə, yük "Taliban"a məxsus imiş və İrandan Azərbaycan ərazisinə keçirilib. Ötən ilin oktyabrında prokuror yük maşınının sürücüsünə qarşı ittihamı geri götürüb və onu məsuliyyətdən azad edib. Sürücü ifadəsində yükün sifarişçisinin Türkiyə vətəndaşı Bayram Coşquni olduğunu bildirib. Gürcüstan hüquq-mühafizə orqanları bu heroin tranzitini təşkil edən digər şəxsləri aşkara çıxarmaq üçün qonşu ölkələrin, o cümlədən Azərbaycanın hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edib. Narkotranzitdə Azərbaycanın adı hallandıqdan sonra prezident İlham Əliyev qanunsuz daşıma ilə bağlı araşdırmaları şəxsi nəzarətinə götürdüyünü bəyan edib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Şəkidə 76 yaşlı kişi həyat yoldaşını baltalayıb

**Şəkidə 76 yaşlı kişi 68 yaşlı arvadını balta ilə qətlə yetirib. Şəki Şəhər-Rayon Polis Şöbəsindən APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, hadisə martın 16-da axşam saat 22 radələrində rayonun Baş Göynük kəndində baş verib.**

1939-cu il təvəllüdlü, İslam Zəkəriyyə oğlu Abduyev ailə münaqişəsi zəminində həyat yoldaşı, 1947-ci il təvəllüdlü İrayə Məmməd qızı Məmmədovanın baş nahiyəsindən balta ilə vuraraq qətlə yetirib. İ. Abduyev saxlanılıb.

Faktla bağlı Şəki Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Yuxuda ikən qan təzyiqinin yüksək qalxması**
* Səhərə yaxın yüksək qan təzyiqi
* **Boyun-baş bel-ayaq ağrıları və asteoxondorz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Təcili satılır**

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 60 (6088) 18 mart 2015

**Son iki gündə dünya mediasında, sosial şəbəkələrdə Çeçenistan lideri Ramzan Kadırovun çizgi film seyr edərkən çəkilən fotoşəkilləri yayılıb. Və foto ilə paralel müzakirələr... Böyüklərin çizgi filmi izləməsinin psixoloji köklərindən tutmuş, bunun insan psixikasına göstərdiyi təsirə qədər.**



# Ramzan Kadırov cizgi filminə baxdı, dünya qarışdı...

## Bu, zombilik əlamətidir, ya saf qəlbin təzahürü?..

Amma bu bir faktdır ki, cizgi filmi izləmək təkcə uşaqların boynuna biçilməyib. Xüsusən bazar günlərində uşağı ilə birgə saatlarla multfilm izləyən valideynlər var ki, bununla təkcə uşağı sakitləşdirmək yox, eyni zamanda öz əhvallarını da yüksəltmək məqsədi güdürlər. Heç kimə sirr deyil ki, cizgi filmlər, ümumən dünyanı gərginlikdən, ağır yükdən, pislikdən təmizləmək məqsədi güdür. Böyükləri isə reallıqdan bir qədər uzaqlaşdırır.

Psixoloqlar əmindilər ki, böyüklər cizgi filmi izləməklə xoşagəlməz situasiyalardan qaçmaq istəyirlər. Onlar həm də həyati qərarları verə bilməyəndə bu yolla "boşalmağa" çalışırlar. "Böyüklər niyə cizgi filmi izləyirlər" sualına psixoloqların ümumiləşmiş bir neçə cavabı var:

*1. Bu cür əyləncəni sevənlər sentimental və romantik insanlardır. Onları mənəvi cəhətdən çox asanlıqla zədələmək olar. Hətta multfilmə baxıb, ağlaya da bilərlər.*

*2. Multfilmə baxıb, enerji alır, pislikləri unudurlar.*

*3. Adətən multfilmlərdə xeyir şərə qalib gəlir. Ona görə də çox adam qısa müddətə də olsa özünü balaca hiss etmək istəyir.*

*4. Uşaqlıqda çox adam xoşbəxt, qayğısız olub. Multfilmlər də insanları uşaqlıq emosiyaları və həyəcanlarına geri qaytarır. Baxır və gülürsən...*

*5. Necə ki, uşaqlar multfilmlərə baxıb, başqa dünyaya gedirlər, özlərinə fərqli, arzuladıqları dünyanı qururlar, böyüklər də eləcə. Onlar üçün yeni, arzuladıqları dünyanın içində olmaq xoş gəlir.*

*6. Cizgi film seyr etmək eyni zamanda istirahət və əyləncə üçün də maraqlı vasitədir.*

Bundan başqa, böyüklər üçün çəkilən multfilmlərin sayının çoxalması da bu sahəyə tələbatın artdığını göstərir. Dediklərimizə xüsusən də yapon multiplikatorlarının çəkdikləri yaxşı nümunədir. Bu multfilmlər yaşlı auditoriya üçün nəzərdə tutulub.

Unutmaq olmaz ki, multiplikasiya da kino və ya ədəbiyyat kimi incəsənətin bir növü sayılır. Ona görə də böyüklər heç də öz məşğuliyyətlərində "uşaqlıq elementlərinin" olmasına görə günahkar deyillər. İş ondadır ki, növündən asılı olmayaraq incəsənət hər zaman insan düşüncə və psixikasında xüsusi yer tutur.

Bununla yanaşı, multfilmə meyl edənlərlə bağlı daha fərqli yanaşma da var. Bir çox psixoloqlar bu xobbini xəstəlik, daha doğrusu, zombilik əlaməti də sayır. Mafiya başçılarının uşaq kimi pişik saxlaması, oyuncaq otağının olması... kimi nüanslar da çox vaxt bunun əlaməti kimi yozulur.

Amma xüsusi bir məqamı da unutmayaq. Alimlər xəbərdarlıq edirlər ki, uşaq cizgi filmləri zorakılıq səhnələri ilə doludur və uşaqlar bunun doğru olduğunu düşünərək təsir altında qalırlar. Bunu London Universiteti alimlərinin apardıqları araşdırmalar göstərir. Uşaq cizgi filmləri heç də məsum deyil. Bu cür cizgi filmlərinin qəhrəmanları böyüklər üçün nəzərdə tutulan filmlərlə müqayisədə daha çox ölürlər.

Araşdırmaya 1937-ci ildən ("Ağca xanım") 2013-cü ilə qədər ("Soyuq ürəklər") çəkilən cizgi filmlərini daxil ediblər. Cizgi filmlərindəki zorakılıq səviyyəsi araşdırılıb. Məlum olub ki, bu filmlərin qəhrəmanları əksər hallarda ölür. Bundan başqa, baş qəhrəmanların valideynləri də tez-tez ölürlər. Misal üçün, "Nemonun axtarışında" cizgi filminin 4-cü dəqiqəsində yırtıcı balıqlar Nemonun anasını yeyir. "Tarzan" cizgi filminin isə 4-cü dəqiqəsində Tarzanın valideynləri leopardı öldürürlər.

Odur ki, uşaqlarınıza izlətdiyiniz cizgi filmini keyfiyyətli seçin ki, baxdığı cizgi filmi onun inkişafına, tərbiyəsinə, davranışlarına müsbət təsir etsin. Bundan əlavə, gündə sadəcə bir saat izləmələrinə icazə verin. Onu da ikiyə bölün. Yarım saat gündüz, yarım saat axşam olmaq şərtilə. Əks təqdirdə, uşaqlarınızda davranış pozuntusu yarana bilər.

❑ **Sevinc TELMANQIZI**

# Nikaha qədər müayinə olunacaq xəstəliklərin siyahısı hökumətə göndərildi

**"Səhiyyə Nazirliyi nikahdan əvvəl tibbi arayış verilən zaman müayinə olunacaq xəstəliklərin siyahısını Nazirlər Kabinetinə göndərib. Siyahıya diyar xəstəliyi olan hemofiliya, talassemiya daxil olmaqla, bəzi yoluxucu xəstəliklər salınıb. Sadəcə olaraq, siyahı Nazirlər Kabineti tərəfindən təsdiq olunmadığı üçün tam şəkildə onların adlarını açıqlaya bilmərik. Düşünürəm ki, bugünlərdə həmin xəstəliklərin siyahısı təsdiq olunacaq".**

Bunu APA-ya açıqlamasında Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdir müavini Səkinə Qurbanova deyib.

S. Qurbanovanın sözlərinə görə, tibbi arayış cütlüklərin nikaha daxil olmaq üçün müraciətlərindən sonra 2 həftə ərzində veriləcək: "Müraciət olunandan 2 həftə ərzində müayinə aparılmalı və tibbi arayış nikaha daxil olmaq istəyən şəxslərə təqdim olunmalıdır. Cütlüklər həkim müayinəsindən yerində keçəcəklər. Səhiyyə Nazirliyi tərəfindən tibbi arayışın verilmə müddəti 2 həftə, tibbi arayışın etibarlılıq müddəti isə 1 ay müəyyən olunub. Yenə deyirəm, hər şey Nazirlər Kabinetinin qərarından asılı olacaq".

S. Qurbanova hemofiliya, talassemiya və bəzi yoluxucu xəstəliklərin analizlərinin mərkəzləşdirilmiş şəkildə Bakı şəhərində aparılacağını da qeyd edib: "Məsələn, talassemiyanın daşıyıcılığını yoxlamaq üçün ən azı 2 həftə müddət lazımdır ki, analizin cavabını verək".

Qeyd edək ki, 2014-cü ilin dekabrında prezident İlham Əliyev Ailə Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanunu təsdiqlədikdən sonra nikahdan əvvəl tibbi arayışın tələb olunması qanuniləşib. Qanun bu il iyunun 1-dən qüvvəyə minəcək.

# Bakı polisi "narkotik əməliyyatı" keçirdi

**Bakı polisi qanunsuz narkotik dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı bir neçə əməliyyat həyata keçirib. Virtualaz.org Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) mətbuat xidmətinə istinadən bildirir ki, Xəzər Rayon Polis İdarəsi (RPİ) Cinayət-Axtarış Şöbəsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş, 1964-cü il təvəllüdlü Elman Mikayıl oğlu Mirzəyevdən 485 qram marixuana aşkar olunaraq götürülüb.**

Xəzər RPİ 1-ci polis bölməsi (PB) və 2-ci PB əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində isə Zirə qəsəbəsi, Babayev küçəsində yaşayan 1986-cı il təvəllüdlü İntiqam Adil oğlu Əliyevin həyətyanı sahəsində yerləşən istixanadan çəkisi 5,26 qram olan marixuana kolu və evin zirzəmisindən 450 qram qurudulmuş marixuana aşkar olunaraq götürülüb.

Analoji əməliyyat paytaxtın Nizami rayonunda da həyata keçirilib. Nizami RPİ Narkotiklə Mübarizə Bölməsi və 23-cü PB əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, 1967-ci il təvəllüdlü Samir Rafiq oğlu Tahirzadədən 455 qram həşiş qətranı və 501,770 qram heroin aşkar olunaraq götürülüb.

# İcra hakimiyyətlərinə məcburi ting əkdirirlər...

## Ting biznesinin arxasında kimin dayandığı açıqlanmır, ölkəyə on minlərlə ting gətirilib, aidiyyəti qurumlarsa xəbərsizdir...



**Rayon və şəhər icra hakimiyyətləri təntənəli ağacəkmə kampaniyasına başlayıb. Bu kampaniya nəticəsində icra hakimiyyətlərindən minlərlə ting alınması tələb edilir. Musavat.com-a daxil olan məlumatda bildirilir ki, Prezident Administrasiyasından Bakı Şəhər İcra Hakimiyyətinə və rayon icra hakimiyyətlərinə bununla bağlı rəsmi məktubla tapşırıq verilib. Göstərişə əsasən, icra hakimləri tabeliyində olan rayonlarda iki - on min arası ağac əkməlidirlər. Ağacların isə xaricdən gətirildiyi bildirilir. Qeyd edilir ki, yaşıllaşdırma kampaniyası adı altında rayonlara on minlərlə ting paylanılıb. Bu, məcburi kampaniyadır, əkiləcək tinglər eyni yerdən və baha qiymətə alınmalıdır.**

Qeyd edək ki, ölkədə də ting yetişdirilir və bu işlə əsasən Bakı Şəhər İcra Hakimiyyətinin nəzdindəki bir neçə qurum məşğuldur. Həmçinin ağac və güllərin ölkəyə gətirilməsi də daha çox Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) gördüyü işlərin siyahısına daxildir. BŞİH-dən bununla bağlı fikir öyrənmək mümkün olmasa da, qurumun nəzdindəki Bakı Şəhər Yaşıllaşdırma İdarəsinin rəisi Vaqif Novruzov danışıb. O, məsələ ilə bağlı bildirib ki, icra hakimiyyətlərinə verilən tingəkmə tapşırığından xəbərsizdir: **"Mənim idarəm var. Biz rayon icra hakimiyyətləri ilə əlaqəli qurum deyilik. Kim ağac əkirsə, gedib bazardan, ordan-burdan alıb əkir. Bizlik deyil. Bizim öz yerimiz var, orada ağac əkirik"**. O, həmçinin qeyd edir ki, idarə də ting yetişdirir: **"Səhəm var, orada ting yetişdiririk"**.

Nəbatat Bağından isə bildirilib ki, rayon icra hakimiyyətlərinə əkmək üçün tingləri onlar verməyiblər: **"Onlar tingləri bizdən almayıblar. Ümumiyyətlə, ağac əkib- satmaq işinə baxmırıq. Buna Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Departamenti, Bakı Abadlıq Departamenti kimi qurumları baxır"**.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən də bildirilib ki, icra hakimiyyətlərinə verilən tinglərdən xəbərləri yoxdur. Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimovanın sözlərinə görə, onlar müraciət əsasında idarə və müəssisələrə əkilməsi üçün ting verirlər: **"Nazirliyə müraciət olunarsa, biz idarə və müəssisələrə köməklik edirik, onları tinglə təmin edirik. Nazirliyin bu məqsədlə yaradılmış tingliyi də var"**. O qeyd edib ki, ekologiya nazirliyi ağacəkmə kampaniyalarına rəhbərlik etməsə də, köməklik göstərərək təmənnasız olaraq ting verir: **"Həmin tinglər də regional meşə tingliyi sahəsində yetişdirilir. Orada göyüş, akasiya, zeytun, eldar şamı, sərv, ağcaqayın kimi ağaclar yetişdirilir"**. İ.İbrahimovanın sözlərinə görə, bu il nazirliyə ting üçün müraciət edən qurumlar olsa da, onların sırasında rayon icra hakimiyyətləri yoxdur. Qeyd edək ki, ting biznesinin arxasında kimin dayandığı açıqlanmasa da, bu kampaniya zamanı yerli tinglərin əkilməsinin qadağan olunduğu bildirilir.

Ağacəkmə kampaniyasının martın əvvəlindən başlanıb may ayına kimi davam etməsi gözlənilir.

❑ **Röya RƏFİYEVA**

# YENİ MÜSAVAT

Son səhifə

N 60 (6088) 18 mart 2015


# 1200 illik üzükdə Allah yazısı

İsveçdə aparılan arxeoloji qazıntılar zamanı IX əsrdən qalmış bir qadının məzarından üzərində ərəbcə Allah yazılmış üzük tapılıb. 1800-cü illərin sonlarında Birka olaraq tanınan Vikinq ticarət mərkəzində aparılan araşdırmalar zamanı tapılan üzüyün üzərində ametist daşı olduğu görünüb. Daşın üzərində çalışan mütəxəssislər bunun əslində şəffaf rəngdə olduğunu, sonra rənginin dəyişdiyini deyiblər. Daşın üzərindən ərəbcə "Allah üçün" sözləri yazılıb. Üzüyün ticarət üçün gətirildiyi düşünülür. Tarixçilər sözügedən ərazidə ticarətin 3400 il əvvəl başladığını deyirlər. Buraya mallar Misirdən gətirilirmiş.





## Çaya görə dişləri töküldü

Linda V. adlı qadının dişlərinin tökülməsinə səbəb olaraq qara çay içməsi göstərilib. Almaniyanın "Focus" jurnalında yayımlanan xəbərdə qara çayın nə qədər zərərli olmasından da bəhs edilib. Həkimlər gün ərzində həddən çox çay içmənin diş tökülməsinə, hətta sümük əriməsinə səbəb olduğunu deyib. 47 yaşlı Lindanın illərdir tökülən dişlərinin çox çay içməkdən qaynaqlandığını isbat edən həkim onun dişlərinin çoxunu çıxararaq yerinə protez diş düzəldib.

Henry Ford klinikasının həkimləri də uzun müddətdir bel və ayaq ağrılarından əziyyət çəkən qadını müalicə edə bilmədiklərini deyiblər. Hər gün 20 stəkandan çox çay içən qadın çayın onun yaşama səbəbi olduğunu açıqlayıb. O, spirtli içki içmədiyini, yalnız qara çay qəbul etdiyini deyib. Çay içmədiyi zamanlar özünü zəif hiss etdiyi deyən qadın bəzi günlərdə 100 stəkandan çox çay içdiyini deyib.



## Kəndlilər ata-oğul robotu düzəltdi

Çindəki bir kənddə əkinçiliklə məşğul olan ata-oğul robot düzəldiblər. Yu Zihlin və Yu Lingyum adlı ata-oğul çox sevilən Optimus Prime və Bunblebeeyə bənzər robotlar düzəltmək fikrinə düşüblər. Bu məqsədlə istifadə edilməyən bir çox metal parçalar toplayıblar. Uzun müddət çalışdıqdan sonra robotların hər ikisini düzəldə biliblər. Kəndlilərin düzəltdikləri nəhəng robotlar 150 min dollara satılıb.

# Milyarder qatil çıxdı

Amerikalı milyarder Robert Durst qəsdən cinayət törətdiyi üçün həbs edilib. Bir hoteldə polislər tərəfindən nəzarətə götürülən biznesmen məhkəməyə çıxarılmaq üçün Los Ancelesə göndərilib. Durst bu günə qədər törətdiyi 3 cinayət əməlini etiraf edib və onun etirafı televiziya kanallarında yayımlanıb. İlk dəfə "HBO" kanalında yayımlanan videoda görünür ki, 71 yaşlı milyarder üzərindəki mikrofondan xəbərsiz halda öz-özünə danışır: "Mən nə iş gördüm? Təbii ki, hamısını mən öldürdüm". Yaşlı milyarder 1982-ci ildə sirli şəkildə itən arvadı Katlenin, 2000-ci ildə vurularaq öldürülən mətbuat xidmətinin rəhbəri Susan Bermanın və 2001-ci ildə bıçaqlanaraq öldürülən və parçalara ayrılmış halda tapılan qonşusu Morris Blakin ölümündən şübhəli bilinir. Məşhur milyarderin gec də olsa, cinayətlərini etiraf edərək həbs edilməsi ölkə mediasının gündəmindən düşmür.





## Whatsappa görə qamçılandı

Whatsapp sosial şəbəkəsindən bir kişiyə söyən qadın qamçılanıb. "Daily Mail"in xəbərinə görə, Səudiyyə Ərəbistanında baş verən hadisə zamanı adı açıqlanmayan qadın bir kişiyə söyüb. Etibarının zədələndiyini deyən kişi onu məhkəməyə verib. Məhkəmənin qərarından sonra qadın 70 qamçı və 20 min rial pul cəzası alıb. Qamçılanan qadın kişiyə söydüyünü qəbul etsə də, bu qədər ağır cəza almasının doğru olmadığını deyib. Lakin sözügedən şəxsi niyə söydüyünü açıqlamayıb. Səudiyyə Ərəbistanı qanunlarına görə, yeni cihazlardan istifadə edərək kiməsə söyüş söyməyin və ya təhqir etməyin cəzası 1 il həbs və 500 min rialdır. Bir müddət əvvəl də bir-birilərinə Whatsappda söyən iki qadına 10 gün həbs və 20 qamçı cəzası verilmişdi.




QOÇ - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki qarşıdakı günlərdə bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri və mövqenizi konkretləşdirməlisiniz.

BUĞA - Bu təqvimdə uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağa çalışın. Çünki ayın sonuna qədər bundan səmərəli vaxt olmayacaq. Təmir-quraşdırma işləri üçün də əhəmiyyətli gündür.

ƏKİZLƏR - Həftə ərzində yaranmış maliyyə problemlərinizi aradan qaldırmaq asanlaşmaqdadır. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz. Qidanıza fikir verin.

XƏRÇƏNG - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Səhhətinizə qayğı göstərin.

ŞİR - Tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 13-dən 17-yə qədər şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər.

QIZ - Qonaq getmək üçün günün ikinci yarısı münasibdir. Amma hər hansı fiziki işlərə başlamaq, yeni müqavilələr bağlamaq yolverilməzdir. Ailə münasibətlərində obyektiv addımlar atın.

TƏRƏZİ - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

ƏQRƏB - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

OXATAN - Mart ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Büdcənizdə artım da mümkündür.

OĞLAQ - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhətdir. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Axşama doğru qazanmaq ehtimalınız var.

SUTÖKƏN - Astroloji göstəricilər sizin zodiaka məsləhət görür ki, əsas üstünlüyü sevgiyə yönəldəsiniz. Dardüşüncəli insanların fikirlərinə əhəmiyyətsiz yanaşın. Gələcəyə tam ümidlə baxın.

BALIQLAR - Bürcünüzün ən uğurlu məqamlarını yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Qərarlarınızda qətiyyətli olun.

Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!

## Sevgi beynimizi necə işlədir?



Sevən, heç sevməmiş və sevgilisindən ayrılmış 100 nəfər üzərində aparılan araşdırmalar nəticəsində sevginin beyinə necə təsir etdiyi açıqlanıb. Çinin Elm və Texnologiya Universitetinin professoru Xiaochu Zangın keçirdiyi təcrübə zamanı 100 nəfərin beynində maqnit araşdırması aparılıb.

Beynin səs, görünüş, düşüncə kimi hisslərə görə çalışan hissəsində araşdırma aparan mütəxəssislər sevən insanların beyin funksiyalarının ayrılmış və heç sevməmiş insanlara nəzərən daha güclü olduğunu açıqlayıblar.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.